# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

19 noyabr 2025-ci il, çərşənbə
№ 210 (7037)
Qiymәti 60 qәpik




Milli azadlıqdan şirin nemət yoxdur!

# Azərbaycan və Mərkəzi Asiya: Qitələri birləşdirən strateji körpü

## İlham Əliyev: Azərbaycanda Zəngəzur dəhlizinin tikintisi başa çatmaq üzrədir. Bu dəmir yolu Orta Dəhlizin əsas arteriyasına çevriləcək



Bax səh. 2

## Yeni dövrün yeni tələbləri

Bax səh. 2

## Zəngilanda

### Əlaqələndirmə Qərargahının 5 illik fəaliyyətinə həsr olunmuş iclas keçirilib

Azərbaycan Respublikasının Prezidenti Administrasiyasının və Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının rəhbəri Samir Nuriyevin sədrliyi ilə Zəngilan şəhərində Qərargahın 5 illik fəaliyyətinə həsr olunmuş iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, iclasda çıxış edən Samir Nuriyev dövlətimizin başçısının birbaşa rəhbərliyi ilə işğaldan azad edilmiş ərazilərə "Böyük Qayıdış" Proqramının gerçəkləşdirildiyini bildirib.

Onun sözlərinə görə, Qarabağın və Şərqi Zəngəzurun bərpası və yenidən qurulması istiqamətində həyata keçirilən genişmiqyaslı işlər postmünaqişə dövründə tətbiq edilən ən sistemli və sürətli yenidənqurma modellərindən biri kimi beynəlxalq təcrübə üçün mühüm nümunədir.

Sonra iclasın gündəliyinə uyğun olaraq, "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrası çərçivəsində işğaldan azad edilmiş ərazilərdə yaşayış məntəqələri üzrə həyata keçirilən işlər barədə məlumatlar təqdim edilib...

Bax səh. 3

## Bakı-Vaşinqton əlaqələri yeni mərhələdə



Bax səh. 5

## Maliyyə islahatlarının yeni hədəfi

Bax səh. 4

## Yeni Tərəfdaşlıq Strategiyasına başlanılır

Bax səh. 5

## Keçmişdən gələcəyə uzanan körpü...

Bax səh. 6

## Hər zaman bir yerdə!

Dünyada Azərbaycan və Türkiyə qədər bir-birinə yaxın olan iki dövlət tapmaq mümkün deyil. Bu gün iki ölkənin qardaşlıq prinsipinə əsaslanan münasibətləri zirvədədir və bu qardaşlığa hansısa bir formada xələl gətirə biləcək qüvvə yoxdur. Çünki bu dostluq, qardaşlıq tarixə söykənir, dövlətlərin, liderlərin qətiyyətli siyasi iradələrindən və cəmiyyətlərin, xalqların istəyindən güc alır. Əsas məqam ondan ibarətdir ki, hər iki dövlət və xalq münasibətləri qorumaq və gələcəkdə daha da möhkəmlətmək əzmindən çıxış edir. Bununla bağlı Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Nazirlər Kabinetinin iclasından sonra xalqa müraciətində növbəti dəfə səmimi fikirlərini ifadə edib.

Azərbaycanda da çox sevilən və böyük hörmət bəslənilən Prezident Rəcəb Tayyib Ərdoğan bildirib ki, Türkiyə "Bir millət, iki dövlət!" anlayışı ilə bundan sonra da Azərbaycanın yanında olacaq. Qardaş ölkənin dövlət başçısı bu fikri reallığa əsaslanmaqla dilə gətirib. Həqiqətən də, iki ölkə hər zaman bir yerdədirlər və hər zaman da kədərlərini və sevinclərini bir-biri ilə bölüşürlər. İki ölkənin münasibətlərini sınaqlarda bərkiyən qardaşlıq kimi səciyyələndirmək daha doğru olardı.

Azərbaycan və Türkiyə çətin günlərin dostlarıdırlar. Dövlətimizin başçısının qeyd etdiyi kimi, Azərbaycan hər zaman Türkiyənin yanında olub, Türkiyə də hər zaman...

Bax səh. 4



## Avropa İttifaqı xəsis büdcə paketi qəbul edib

Bax səh. 7

## Tarixi razılaşma əldə olundu

Bax səh. 6



## Yaxın Şərq üçün plan təsdiqləndi...

Bax səh. 7

# Azərbaycan və Mərkəzi Asiya: Qitələri birləşdirən strateji körpü

## Orta Dəhliz və Zəngəzur xətti fonunda yeni qlobal inteqrasiya modeli



### İlham Əliyev: Azərbaycanda Zəngəzur dəhlizinin tikintisi başa çatmaq üzrədir. Bu dəmir yolu Orta Dəhlizin əsas arteriyasına çevriləcək

2020-ci ildən sonra yaranan yeni geosiyasi mühit təkcə regionun siyasi xəritəsini yeniləmədi, həm də qlobal logistika sistemində tamamilə yeni bir mərhələnin əsasını qoydu. Azərbaycan bu mərhələnin mərkəzində dayanan ölkələrdən birinə çevrildi. Uzun illərdən bəri Şərqlə Qərb arasında tranzit missiyasını yerinə yetirən Bakı, Zəngəzur dəhlizi ideyasını irəli sürməklə yalnız ölkənin deyil, bütövlükdə Avrasiya məkanının logistika arxitekturasını dəyişdirən mühüm təşəbbüs ortaya qoydu. Artıq formalaşmaqda olan yeni strateji xəritədə Azərbaycan Orta Dəhlizin aparıcı keçid ölkəsi olmaqla yanaşı, həm də yeni geoiqtisadi nizamın layihəçisi və qovşağıdır. Xəzər ötürücülüyü, Orta Dəhlizin genişlənməsi, Transxəzər yükdaşımalarının dinamik artımı, Bakı-Tbilisi-Qars xəttinin modernləşdirilməsi və ən əsası, Zəngəzur dəhlizinin regional əlaqələri tamamilə yenidən qurması Azərbaycanın rolunu daha da artırır.

Bu reallıq Mərkəzi Asiya ölkələri üçün də strateji əhəmiyyət daşıyır. Artıq Azərbaycanla Mərkəzi Asiya demək olar ki, eyni

### Avrasiyanın logistik arxitekturası dəyişir: Azərbaycan + Mərkəzi Asiya regionun strateji qovşağına çevrilir

regional reallıqları bölüşən, iqtisadi baxımdan bir-birini tamamlayan vahid bir məkan kimi formalaşır. Azərbaycanın Mərkəzi Asiya dövlət başçılarının Məşvərət görüşünə tamhüquqlu üzv qismində qoşulması isə bu reallığı siyasi, diplomatik və institusional səviyyədə təsdiqləyir. Bu, Azərbaycanın regionun ayrılmaz hissəsinə çevrilməsi, həm tarixi, həm mədəni, həm də iqtisadi inteqrasiyanın yeni mərhələyə qədəm qoyması deməkdir. Noyabrın 16-da Özbəkistanın paytaxtı Daşkənddə Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşündəki çıxışında Prezident İlham Əliyev bildirib ki, bu gün Azərbaycan və Mərkəzi Asiya Şərqlə Qərb, Şimalla Cənub arasında birləşdirici bənd və körpüdür.

Nəticə etibarilə, Azərbaycanın yeni logistik siyasəti, nəqliyyat infrastrukturu, rəqəmsal və enerji layihələri ölkəni təkcə regionun deyil, Avrasiyanın əsas inteqrasiya mərkəzlərindən birinə çevirir. Qarşıdakı dövrdə həm Orta Dəhliz, həm Zəngəzur dəhlizi Azərbaycanın qlobal ticarətdə rolunu daha da gücləndirəcək.

### Yeni regional inteqrasiya mərhələsinin əsası

Mərkəzi Asiya - Azərbaycan əməkdaşlığının iqtisadi mahiyyətini müəyyən edən əsas faktor yükdaşımaların optimallaşdırılması, nəqliyyat infrastrukturunun modernləşdirilməsi və rəqəmsallaşdırma proseslərinin sinxron aparılmasıdır. Bu gün tranzit bazarında rəqabət dayanıqlı, çevik və rəqəmsal sistemlər tələb edir. Azərbaycan da, Mərkəzi Asiya ölkələri də bu istiqamətdə paralel proseslər həyata keçirir və bu onların əməkdaşlığını daha da asanlaşdırır. Dövlət başçısı deyib ki, Orta Dəhlizin inkişafı ölkələrimiz üçün strateji əhəmiyyət kəsb edir. Nəqliyyat və logistika infrastrukturunun müasirləşdirilməsi, gömrük prosedurlarının sinxronlaşdırılması və rəqəmsallaşdırılması üzrə birgə səylər yükdaşımaların həcminin artırılması, iqtisadi dayanıqlılığın gücləndirilməsi və beynəlxalq bazarlarda əməkdaşlığın inkişaf etdirilməsi üçün geniş imkanlar açır.

Bəli, Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin daşıma qabiliyyətinin artırılması, Ələt Beynəlxalq Dəniz Limanının genişləndirilməsi, Transxəzər marşrutları üzrə vahid logistik pəncərənin tətbiqi böyük həcmdə yüklərin daha sürətli və təhlükəsiz daşınmasına imkan yaradır. Mərkəzi Asiya ölkələrinin - Qazaxıstan, Özbəkistan, Türkmənistan və Qırğızıstanın bu potensiala qoşulması isə Orta Dəhlizi qlobal tranzit bazarının ən dinamik xətti edir. Gömrük prosedurlarının harmonizasiya edilməsi, birgə tarif siyasəti, elektron sənədləşmə və rəqəmsal tranzit sistemləri, e-TIR və e-CMR kimi mexanizmlər yükdaşımaların vaxtını və xərcini ciddi şəkildə azaldır. Bu isə həm regional ticarəti artırır, həm də Orta Dəhlizi Avropanın və Asiyanın ən rəqabətli marşrutlarından birinə çevirir. Prezident İlham Əliyev bildirib ki, son üç ildə Orta Dəhliz üzrə Azərbaycandan keçən yükdaşımalar 90 faiz artıb. Dəhliz boyu gediş vaxtları xeyli azalıb: "Yaxın illərdə buraxılış qabiliyyəti ildə 25 milyon tona çatacaq Ələt Beynəlxalq Limanı, Bakı-Tbilisi-Qars dəmir yolu, doqquz beynəlxalq hava limanı, regionun ən böyük yük aviaşirkəti və digər amillər Azərbaycanı beynəlxalq nəqliyyat qovşağına çevirmişdir".

Artan yükdaşıma həcmi təkcə iqtisadi mənfəət deyil, həm də siyasi əməkdaşlığın dərinləşməsi deməkdir. Çünki nəqliyyat layihələri ölkələri fiziki olaraq birləşdirməklə paralel şəkildə onların siyasi və strateji maraqlarını da sinxronlaşdırır. Bu baxımdan Azərbaycan və Mərkəzi Asiya arasında nəqliyyat-logistika sinerjisi regionun gələcək onilliklərdə sabitliyini və inkişafını təmin edən fundamental dayaqlardan birinə çevrilir.




### Vaşinqton razılaşmaları: Mərkəzi Asiya üçün yeni, geniş tranzit xəritəsi

Bu ilin avqustunda Vaşinqtonda aparılan danışıqlar, sülh sazişi layihəsinin paraflanması və eləcə də, Zəngəzur dəhlizi (TRİPP) layihəsinin reallaşması ilə bağlı əldə edilən tarixi razılaşma Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında yeni nəqliyyat-kommunikasiya xətlərinin açılması baxımından da böyük əhəmiyyət daşıyır. Paralel olaraq bu razılaşma Azərbaycanla yanaşı, bütün region üçün strateji dönüş nöqtəsi sayılır. Çünki nəzərdə tutulan yeni xətlər, əlaqələr ölkəmizin əsas hissəsi ilə Naxçıvan arasında quru əlaqənin formalaşdırılması ilə yanaşı, həm də Avrasiya tranzit xəritəsini yenidən qurur. Açılacaq bu xətt həm də Azərbaycan vasitəsilə Mərkəzi Asiyanın Qərbə, Aralıq dənizinə və qlobal cənuba daha sərfəli, daha təhlükəsiz çıxış əldə etməsinə imkan verir. Bu marşrut Mərkəzi Asiya ölkələrinin yüklərinin bir hissəsinin Naxçıvan üzərindən Türkiyəyə və oradan Avropaya daşınması kimi tamamilə yeni ticarət sxemlərini gündəmə gətirir. Prezident İlham Əliyev çıxışında Azərbaycanın əsas hissəsini onun Naxçıvan Muxtar Respublikası ilə birləşdirmək üçün bu ilin avqustunda Vaşinqtonda əldə edilmiş razılaşmaların beynəlxalq daşımalar üçün tranzit imkanlarının genişləndirilməsinə töhfə verəcəyinə əminliyini ifadə edib: "Azərbaycanda Zəngəzur dəhlizinin tikintisi başa çatmaq üzrədir. İlkin mərhələdə 15 milyon ton yükdaşıma qabiliyyətinə malik bu dəmir yolu Orta Dəhlizin əsas arteriyasına çevriləcək. Həmçinin Zəngəzur dəhlizinin bir hissəsi olacaq avtomagistralın tikintisi də başa çatmaq üzrədir".

Beləliklə, Vaşinqton razılaşmaları yeni geoiqtisadi və geostrateji konsepsiya kimi ön plana çıxır - bu konsepsiya:

- Mərkəzi Asiya ölkələrinin Qərblə birbaşa ticarət əlaqələrini gücləndirir;
- Azərbaycanın tranzit ölkə yox, logistik qovşaq kimi statusunu möhkəmləndirir;
- Türkiyə-Azərbaycan-Mərkəzi Asiya üçbucağını iqtisadi blok halına gətirir;
- Avropanın enerji və nəqliyyat təhlükəsizliyi üçün yeni alternativ yaradır.

Bu xəttin tam işə düşməsi Orta Dəhlizin yük payını artıracaq, Transxəzər dəhlizinə əlavə dinamika gətirəcək və nəticədə Mərkəzi Asiyanın qlobal ticarətdə çəkisini daha da yüksəldəcək. Qısacası, bu layihə regionu yalnız coğrafi baxımdan yox, siyasi və iqtisadi baxımdan da yenidən formalaşdıran tarixi addımdır.

### Azərbaycanın və Mərkəzi Asiyanın yeni enerji ixracı mərhələsi...

Azərbaycan müasir texnoloji inkişaf konsepsiyasını regional əməkdaşlığın əsas istiqamətlərindən birinə çevirib. Rəqəmsal transformasiya, süni intellektin tətbiqi, smart-logistika və yeni texnologiyaların nəqliyyat sisteminə inteqrasiya olunması tranzit xətlərinin gələcəyini müəyyən edən faktorlardır. Mərkəzi Asiya ölkələri ilə bu istiqamətdə həm enerji, həm də rəqəmsal əməkdaşlıq üçün geniş perspektivlər mövcuddur. Xüsusilə bərpaolunan enerji sahəsi artıq ortaq strateji prioritetə çevrilib. Azərbaycan 2030-cu ilə qədər yaşıl enerjinin payını ciddi şəkildə artırmağı hədəfləyir. Xəzər dənizində külək enerjisi, Qarabağ və Şərqi Zəngəzurda günəş enerjisi layihələri, həmçinin yaşıl hidrogen istehsalı üzrə planlar Mərkəzi Asiya ölkələri üçün böyük əməkdaşlıq imkanları yaradır. Eyni zamanda, Qazaxıstan və Özbəkistan kimi ölkələrdə geniş günəş və külək potensialı mövcuddur və bu enerji Avropaya ötürülməsi baxımından Azərbaycan üzərindən keçəcək. Bundan əlavə, rəqəmsal rabitə layihələri, fiber-optik əlaqələr, Xəzəraltı data-ötürücü xətlər və elektron ticarət platformalarının sinxronlaşdırılması təkcə iqtisadiyyatları deyil, bütövlükdə regionun texnoloji gələcəyini birləşdirir. Dövlət başçısı çıxışında deyib ki. rəqəmsal rabitə sahəsində əməkdaşlığımız böyük potensiala malikdir. "Rəqəmsal İpək Yolu" layihəsinə Xəzər dənizinin dibi ilə fiber-optik kabel şəbəkəsinin çəkilməsi planları daxildir. Xəzər dənizinin dibi ilə elektrik kabelinin çəkilməsi layihəsi qlobal bazarlara elektrik enerjisinin birgə ixracı üçün böyük perspektivlər açır".

Beləliklə, Azərbaycan-Mərkəzi Asiya əməkdaşlığı artıq yalnız ticarət və nəqliyyat yox, həm də rəqəmsal iqtisadiyyat, kiber təhlükəsizlik, bərpaolunan enerji, yüksək texnologiyalar kimi yeni strateji sahələrə keçir. Bu əməkdaşlıq regionu Avrasiyanın innovasiya xəritəsində daha güclü və nüfuzlu mövqeyə çıxaracaq.

### Dostluğu, qardaşlığı daha da möhkəmləndirən qərar...

Azərbaycan ilə Mərkəzi Asiya respublikalarını birləşdirən münasibətlər təkcə siyasi maraqlara deyil, daha dərin tarixi köklərə dayanır. Coğrafiyamıza məxsus ortaq irs və mədəniyyət yaxınlığı, tarixi İpək Yolunun əsrlərdir qurduğu humanitar körpülər bu əlaqələri möhkəmləndirən əsas amillərdir. Orta əsrlərdən bu günə qədər Azərbaycanın və Mərkəzi Asiyanın alimləri, sənətkarları, ticarət xətləri, hətta ədəbiyyat və memarlıq nümunələri bir-birini tamamlayan böyük mədəni vahidlik yaradıb. Azərbaycanın Mərkəzi Asiya Məşvərət Məclisinə tamhüquqlu şəkildə qoşulması bu tarixi bağların rəsmi, institusional təsdiqi oldu. Bu addım həm diplomatik münasibətləri, həm də humanitar inteqrasiyanı gücləndirir. Təhsil, elm, mədəniyyət, idman və sənət sahələrində yeni birgə layihələr üçün geniş imkanlar açılır. Prezident İlham Əliyev bildirib ki, bu qərar münasibətlərimizin dostluq və qardaşlıq xarakterini bir daha təsdiqləyir, həmçinin geniş coğrafi məkanda əməkdaşlığın və qarşılıqlı fəaliyyətin möhkəmlənməsinə xidmət edəcəkdir.







### Yeni Avrasiya arxitekturasında Azərbaycan-Mərkəzi Asiya birliyi

Azərbaycan və Mərkəzi Asiya ölkələri bu gün artıq yalnız əməkdaşlıq etmir, vahid strateji format daxilində birləşir. Orta Dəhliz, Zəngəzur dəhlizi, rəqəmsal və enerji layihələri bu birliyin geoiqtisadi əsasını yaradır. Məşvərət Məclisinə Azərbaycanın tamhüquqlu qoşulması isə onu siyasi və diplomatik çərçivədə təsdiqləyir.

Bu birlik:

- Avrasiyanın geoiqtisadi xəritəsini yenidən formalaşdırır;
- Şərqlə Qərbi, Şimalla Cənubu birləşdirən yeni qlobal körpü yaradır;
- Regionu dayanıqlı, inteqrasiyanı hədəf kimi müəyyənləşdirən rəqəmsallaşmış iqtisadi məkan kimi formalaşdırır;
- Enerji, nəqliyyat və texnologiya sahələrində yeni inkişaf mərhələsinin önünü açır.

Azərbaycan üçün bu proses yeni nizama verdiyi töhfələrin daha da genişlənməsi, Mərkəzi Asiya ölkələri üçün isə daha güclü qlobal inteqrasiya, daha təhlükəsiz və rəqabətli tranzit imkanları, həmçinin yeni iqtisadi diversifikasiya istiqamətləri yaradır.

*Pərviz SADAYOĞLU*

# Yeni dövrün yeni tələbləri

## Mərkəzi icra hakimiyyəti orqanlarının müasir fəaliyyət prinsiplərinə keçid etmələri qaçılmaz zərurətdir



“Mərkəzi icra hakimiyyəti orqanlarının Nümunəvi Əsasnaməsi” təsdiq edilib. Prezident İlham Əliyev bununla bağlı Fərman imzalayıb.

Nazirlər Kabineti bu Fərmanın 1-ci hissəsi ilə təsdiq edilən Nümunəvi Əsasnamənin tələbləri nəzərə alınmaqla, mərkəzi icra hakimiyyəti orqanlarının əsasnamələrinin təkmilləşdirilməsinə dair təkliflərini altı ay müddətində hazırlayıb Azərbaycan Prezidentinə təqdim etməlidir. Eyni zamanda, bu Fərmandan irəli gələn digər məsələləri həll etməlidir.

Sənədə əsasən, “Mərkəzi icra hakimiyyəti orqanlarının Nümunəvi Əsasnaməsi”nin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 13 fevral tarixli 363 nömrəli Fərmanı ləğv edilir.

### İdarəetmənin çərçivələri yenilənir

Dünyaya nümunəvi inkişaf modeli təqdim edən Azərbaycan özünün yaxın və uzaq hədəflərini konseptual əsaslarla müəyyənləşdirir. Bu zaman bir sıra fundamental amillər, o cümlədən ölkənin potensialı, mövcud reallıqları, yeni qlobal çağırışlar nəzərə alınır və uğurlu koordinasiya təmin edilir. Bundan əvvəlki “Mərkəzi icra hakimiyyəti orqanlarının Nümunəvi Əsasnaməsi”nin təsdiqlənməsindən 20 ilə yaxın vaxt keçib. Böyük zaman məsafəsidir. Ötən dövrdə Azərbaycanın mənzərəsi əhəmiyyətli dərəcədə dəyişib. Xüsusilə də şanlı zəfərlərimizlə başa çatan 44 günlük müharibədən və 23 saatlıq lokal xarakterli antiterror tədbirlərindən sonra Azərbaycan yeni strateji inkişaf mərhələsinə daxil olub. Həmçinin 2030-cu ilədək olan dövrü əhatə edən indiki strateji mərhələ üçün ölkəmizin 5 mühüm prioriteti müəyyənləşdirilib. Bunlar dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat, dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət quruculuğu, rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanın formalaşdırılması, işğaldan azad olunmuş ərazilərə Böyük Qayıdışın təmin edilməsi, təmiz ətraf mühit və “yaşıl artım” ölkəsi prioritetlərindən ibarətdir.

Ötən dövrdə ölkəmiz bütün istiqamətlərdə böyük uğurlar qazanıb. Belə ki, əvvəlki Strategiyanın ardıcıl və sistemli icrası sayəsində iqtisadiyyatın xarici təsirlərə qarşı dayanıqlığı daha da möhkəmlənmiş, şaxələnməsi dərinləşmiş, iqtisadi artım davamlı və inklüziv xarakter almış, əhalinin rifah səviyyəsi yüksəlmiş və gələcək nəsillər üçün irihəcmli maliyyə ehtiyatları formalaşmışdır. Bu gün Azərbaycan iqtisadiyyatı kifayət qədər yüksək rəqabət qabiliyyətinə malikdir və mənfi xarici amillərdən az təsirlənir. Ölkənin iqtisadi müstəqilliyi tam təmin olunub. Respublikamız hər hansı bir beynəlxalq maliyyə təsisatından asılı deyil, özünün güclü təminatları var. Bu əsasda da Azərbaycanın siyasi müstəqilliyi tam təmin olunub. Bu gün Azərbaycan dövləti ölkəmizin, xalqımızın milli maraqlarını qətiyyətlə qoruyur, verilən qərarlar bəzi ölkələrin təcrübəsində olduğu kimi hansısa güc mərkəzlərində deyil, məhz Bakıda, Prezident İlham Əliyev tərəfindən imzalanır.

İnkişafın ardıcıllığının təmin edilməsi məqsədilə Prezident İlham Əliyev bir qədər bundan əvvəl “Azərbaycan Respublikasının 2027-2030-cu illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nın və “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair II Dövlət Proqramı”nın hazırlanması haqqında müvafiq Sərəncam imzalayıb. Ölkəmizin yeni reallıqlarına, möhkəm bazaya istinad edilməklə gələcək üçün daha mühüm hədəflərin müəyyənləşdirilməsi, necə deyərlər, inkişaf çərçivəsinin genişləndirilməsi artıq bir zərurət kimi çıxış edir. Azərbaycan qarşıdakı illərdə daha mürəkkəb çağırışların və zəngin imkanların mövcudluğu ilə seçilən yeni mərhələyə daxil olur. Bu mərhələ qlobal iqtisadi qütbləşmənin dərinləşməsi, eləcə də süni intellekt əsaslı texnologiyaların geniş tətbiqi ilə səciyyələnir. Yeni strategiyanın hazırlanması ölkəmizin ötən illərdə əldə etdiyi sosial-iqtisadi nailiyyətlərin davamlı şəkildə artırılması, bunun üçün özəl, o cümlədən birbaşa xarici investisiyaların cəlbinin genişləndirilməsi, biznes mühitinin əlverişliliyinin yüksəldilməsi, iqtisadiyyatın bilik və texnologiya tutumunun gücləndirilməsi kimi mühüm məqsədləri hədəfləyir. Azərbaycan yeni çağırışlara hazır olmalıdır!

Təbii ki, ölkəmizin reallıqlarına və yeni qlobal çağırışlara uyğun müəyyənləşdirilən strateji vəzifələrin uğurla həyata keçirilməsi, gözlənilən nəticələrin əldə olunması bir sıra amillərdən asılıdır. Bu həm də optimal idarəetmə mexanizmindən, kadrların çevikliyindən asılı olan bir məsələdir. Heç bir halda köhnə baqajla yeni dövrün tələblərini ödəmək mümkün deyil. Mərkəzi icra hakimiyyətləri orqanları gələcək fəaliyyətlərini yeni dövrün tələblərinə uyğun qurmalıdırlar. Prezident İlham Əliyevin siyasi iradəsi əsasında Azərbaycan müasirləşmə yolu tutub, hər sahədə ölkəmizin yüksək standartları müəyyənləşdirilib. Hədəf belədir ki, bir yerdə dayanmaq olmaz, biz daha da irəli getməli, dəyişən dünyada Azərbaycanın mövqeyini gücləndirməliyik. Bundan ötrü mərkəzi icra hakimiyyəti orqanları fəaliyyəttlərini mütərəqqi transformasiyalara uyğun qurmalıdırlar.

### Əsas fəaliyyət istiqamətləri

Təsdiqlənən nümunəvi Əsasnamə ilə Azərbaycanın mərkəzi icra hakimiyyəti orqanlarının fəaliyyəti yeni dövrün reallıqlarına və tələblərinə uyğunlaşdırılır. Sənəddə vurğulandığı kimi, mərkəzi icra hakimiyyəti orqanı normativ hüquqi aktlarla müəyyən edilmiş sahələrdə dövlət siyasətini, dövlət nəzarətini, dövlət tənzimləməsini və əlaqələndirməni həyata keçirir. Fəaliyyətlərini Azərbaycan Konstitusiyasına, respublikamızın tərəfdar çıxdığı beynəlxalq müqavilələrə və və digər hüquqi sənədlərə əsaslanmaqla quracaq mərkəzi icra hakimiyyəti orqanları öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən digər dövlət orqanları (qurumları), yerli özünüidarəetmə orqanları, beynəlxalq və qeyri-hökumət təşkilatları ilə, habelə digər hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərəcəklər.

Dövlət başçısının imzaladığı Fərmanla təsdiqlənən yeni nümunəvi əsasnamədə mərkəzi icra hakimiyyəti orqanlarının geniş hüquqları öz əksini tapdığı kimi, onların fəaliyyət istiqamətləri də müəyyənləşdirilib. Bunlar aşağıdakılardır:

-müvafiq sahədə vahid dövlət siyasətinin formalaşmasında iştirak etmək və bu siyasətin həyata keçirilməsini təmin etmək;

-müvafiq sahədə dövlət tənzimləməsini, dövlət nəzarətini və əlaqələndirməni həyata keçirmək;

-müvafiq sahənin inkişafını təmin etmək;

-müvafiq sahədə normayaratma fəaliyyətini həyata keçirmək;

-Orqan haqqında Əsasnamədə göstərilən və Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərmək.

Həmçinin sənəddə mərkəzi icra hakimiyyəti orqanlarının mühüm vəzifələri müəyyənləşdirilib. Bu vəzifələr Prezident İlham Əliyevin müəyyənləşdirdiyi strateji xəttə tam uyğundur. Respublikamızda qanunçuluğun möhkəmləndirilməsi, neqativ halların əhatə dairəsinin daraldılması hədəflənib. Ölkəmizin bu sahədə siyasəti sistemli və ardıcıldır, şəffaflığın təmin olunmasına, iqtisadiyyatın “ağardılması”na prinsipial yanaşma sərgilənir. O cümlədən də institusional çərçivələr optimallaşdırılır, “ASAN xidmət”, “DOST” modelləri ilə inklüzivlik və şəffaflıq artırılır. Nəticədə ölkədə yüksək vətəndaş məmnunluğu təmin edilir. Təsdiqlənən əsasnaməyə əsasən bu qəbildən olan fəaliyyətlərin davam etdirilməsi mərkəzi icra hakimiyyəti orqanlarının vəzifələri sırasında yer alır. Sənədə əsasən, “Korrupsiyaya qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, müvafiq sahədə korrupsiya risklərini azaltmaq məqsədilə korrupsiya risklərini və həmin risklərə uyğun olaraq hədəfləri müəyyən etmək, eləcə də həmin risklərin təhlili, qiymətləndirilməsi və qarşısının alınması üzrə tədbirlər görmək mərkəzi icra hakimiyyəti orqanlarının mühüm vəzifələrindən biri kimi müəyyənləşdirilib.

### Vətəndaş məmnunluğunun yüksəldilməsi hədəfi

Ölkəmizdə Prezident İlham Əliyevin timsalında xalqa bağlı olan, öz fəaliyyətində cəmiyyətdən gələn sosial sifarişləri mütləq qaydada nəzərə alan və ardıcıllıqla həyata keçirən rəhbər obrazı formalaşıb. Dövlətimizin başçısının son iyirimi ildən artıq müddətdə həyata keçirdiyi daxili siyasət xəlqi mahiyyət daşıyır, sırf Azərbaycan xalqının maraqlarına xidmət edir.

Dövlətimizin başçısının şəxsi nümunəsində yaratdığı bu model ölkənin hər yerində və istisnasız olaraq bütün səviyyələrdə yayılmalı və məmurların fəaliyyət meyarına çevrilməlidir. Prezident İlham Əliyevin etimad göstərərək yüksək vəzifələrə təyin etdiyi məmurların əsas işi xalqa xidmət göstərmək olmalıdır. Artıq hansısa bir vəzifənin kabinetlərdən icra edilməsi dövrü Azərbaycan üçün bir keçmişdir. Tələb belədir ki, məmurlar daim insanlarla bir yerdə olmalı, özlərini onlardan üstün tutmamalı, şəxsi mənafe güdməməlidirlər.

Dövlət başçısının imzaladığı fərmanla təsdiqlənən sənəddə ölkədə vətəndaş məmnunluğunun artırılması diqqət mərkəzində saxlanılıb. Fərmana əsasən, orqanın fəaliyyəti ilə bağlı daxil olan müraciətlərə “Vətəndaşların müraciətləri haqqında”, “İnzibati icraat haqqında” və “İnformasiya əldə etmək haqqında” Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq baxmaq və qanunla müəyyən edilmiş qaydada tədbirlər görmək mərkəzi icra hakimiyyəti qurumlarının əsas vəzifələri sırasında yer alır.

### Çeviklik və səmərəlilik artacaq

Mərkəzi icra hakimiyyəti orqanlarının nümunəvi əsasnaməsinin təsdiq olunması bütövlükdə idarəetmə aparatında çevikliyin və səmərəliliyin yüksəlməsinə imkan verəcək. Çünki yeni qaydalar mərkəzi icra hakimiyyəti orqanlarının vəzifələrinin, hüquqlarının və eləcə də fəaliyyət sahələrinin daha aydın şəkildə müəyyənləşdirilməsinə imkan yaradır.

Bu fikirləri “Yeni Azərbaycan”a açıqlamasında Milli Məclisin deputatı Vüqar Bayramov ifadə edib. O bildirib ki, nəticə etibarı ilə iqtisadiyyatın müxtəlif sahələrində fəaliyyət göstərən mərkəzi icra hakimiyyəti orqanlarının daha səmərəli və şəffaf fəaliyyət həyata keçirmələri təmin olunacaq. Deputatın sözlərinə görə, Azərbaycanda islahatların dərinləşdirilməsi prosesi müşahidə edilir, eyni zamanda institusional islahatlar həyata keçirilir. Bu da daha çevik idarəetmə aparatının formalaşmasına gətirib çıxardır. “İslahatların dərinləşdirilməsi mərkəzi icra hakimiyyəti orqanlarının fəaliyyətinin daha da təkmilləşdirilməsini aktuallaşdırıb. Həm kadr, həm də institusional islahatlar qərarların daha çevik qəbil edilməsinə və eyni zamanda mərkəzi icra hakimiyyəti orqanlarının fəaliyyətlərinin müəyyənləşdirilmiş əsasnaməyə, mövcud qanunvericiliyə uyğun olaraq qurulmasına imkan yaradır. Bu kontekstdən təbii ki, yeni qaydalar həm də mərkəzi icra hakimiyyəti orqanlarının fəaliyyəti üçün artıq yeni hədəflərə və çağırışlara uyğun hazırlanmış bir sənəddir. Bu, Azərbaycanda idarəetmə sahəsində islahatların dərinləşməsini özündə ehtiva edir. Əminəm ki, yeni nümunəvi əsasnamə Azərbaycan iqtisadiyyatında diversifikasiya meylləri, qeyri-neft sektorunun inkişafı və iqtisadiyyatın dayanıqlılığının artırılması ilə bağlı aparılan siyasətə uyğun olaraq mərkəzi icra hakimiyyəti orqanlarının fəaliyyətinin daha da təkmilləşdirilməsinə və səmərəliliyin artmasına gətirib çıxaracaq, - deyə Vüqar Bayramov vurğulayıb.

*Mübariz ABDULLAYEV*

# Zəngilanda...

## Əlaqələndirmə Qərargahının 5 illik fəaliyyətinə həsr olunmuş iclas keçirilib





Azərbaycan Respublikasının Prezidenti Administrasiyasının və Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının rəhbəri Samir Nuriyevin sədrliyi ilə Zəngilan şəhərində Qərargahın 5 illik fəaliyyətinə həsr olunmuş iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, iclasda çıxış edən Samir Nuriyev dövlətimizin başçısının birbaşa rəhbərliyi ilə işğaldan azad edilmiş ərazilərə “Böyük Qayıdış” Proqramının gerçəkləşdirildiyini bildirib.

Onun sözlərinə görə, Qarabağın və Şərqi Zəngəzurun bərpası və yenidən qurulması istiqamətində həyata keçirilən genişmiqyaslı işlər postmünaqişə dövründə tətbiq edilən ən sistemli və sürətli yenidənqurma modellərindən biri kimi beynəlxalq təcrübə üçün mühüm nümunədir.

Sonra iclasın gündəliyinə uyğun olaraq, “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”nın icrası çərçivəsində işğaldan azad edilmiş ərazilərdə yaşayış məntəqələri üzrə həyata keçirilən işlər barədə məlumatlar təqdim edilib.

Zəngilana səfər çərçivəsində Əlaqələndirmə Qərargahının üzvləri şəhər ərazisində bir sıra obyektlərə, o cümlədən Zəngilan şəhər məscidinə, Zəngilan şəhər yaşayış kompleksinə, məktəb və uşaq bağçası binalarına baxış keçirilib.

Bundan əlavə, Əlaqələndirmə Qərargahının üzvləri Zəngilan Hotel Kompleksində görülən işlərlə tanış olublar.

Əlaqələndirmə Qərargahının üzvlərinin səfəri davam edir.

# Hər zaman bir yerdə!

## Azərbaycan və Türkiyənin qardaşlıq münasibətləri tarixə söykənir, dövlətlərin, liderlərin qətiyyətli siyasi iradələrindən və cəmiyyətlərin, xalqların istəyindən güc alır



Dünyada Azərbaycan və Türkiyə qədər bir-birinə yaxın olan iki dövlət tapmaq mümkün deyil. Bu gün iki ölkənin qardaşlıq prinsipinə əsaslanan münasibətləri zirvədədir və bu qardaşlığa hansısa bir formada xələl gətirə biləcək qüvvə yoxdur. Çünki bu dostluq, qardaşlıq tarixə söykənir, dövlətlərin, liderlərin qətiyyətli siyasi iradələrindən və cəmiyyətlərin, xalqların istəyindən güc alır. Əsas məqam ondan ibarətdir ki, hər iki dövlət və xalq münasibətləri qorumaq və gələcəkdə daha da möhkəmlətmək əzmindən çıxış edir. Bununla bağlı Türkiyə Prezidenti RəcəbTayyib Ərdoğan Nazirlər Kabinetinin iclasından sonra xalqa müraciətində növbəti dəfə səmimi fikirlərini ifadə edib.

### Daim sevincini və kədərini bölüşən iki qardaş ölkə

Azərbaycanda da çox sevilən və böyük hörmət bəslənilən Prezident Rəcəb Tayyib Ərdoğan bildirib ki, Türkiyə "Bir millət, iki dövlət!" anlayışı ilə bundan sonra da Azərbaycanın yanında olacaq. Qardaş ölkənin dövlət başçısı bu fikri reallığa əsaslanmaqla dilə gətirib. Həqiqətən də, iki ölkə hər zaman bir yerdədirlər və hər zaman da kədərlərini və sevinclərini bir-biri ilə bölüşürlər. İki ölkənin münasibətlərini sınaqlarda bərkiyən qardaşlıq kimi səciyyələndirmək daha doğru olardı.

Azərbaycan və Türkiyə çətin günlərin dostlarıdırlar. Dövlətimizin başçısının qeyd etdiyi kimi, Azərbaycan hər zaman Türkiyənin yanında olub, Türkiyə də hər zaman Azərbaycanın yanında olub. Qardaş xalqlar yalnız xoş günlərin sevincini bölüşmür, həm də dar gündə bir-birinə dayaq durur, ehtiyac yarananda köməyə tələsirlər. Buna isə həm tarixdən, həm də müasir dövrdən çoxlu nümunələr göstərmək mümkündür. Qardaş ölkə artıq tarixdə qalan Qarabağ münaqişəsinin davam etdiyi üç onillik ərzində həmişə Azərbaycana dəstək verib. Biz Türkiyənin qətiyyətli dəstəyini 44 günlük Vətən müharibəsi zamanı bir daha gördük. Müharibənin ilk günlərindən başda qardaş ölkənin Prezidenti Rəcəb Tayyib Ərdoğan olmaqla əksər yüksəksəviyyəli rəsmiləri Türkiyənin Azərbaycanın yanında olduğunu bildirən bəyanatlarla çıxış etdilər. Türkiyənin bu mənəvi-siyasi dəstəyi Azərbaycana güc verdi. Nəticədə, Silahlı Qüvvələrimiz 44 günlük müharibədə şanlı Qələbə qazanaraq respublikamızın ərazi bütövlüyünü təmin etdi. Postmüharibə mərhələsində də qardaş Türkiyə Azərbaycanın işğaldan azad edilmiş ərazilərdə start verdiyi genişmiqyaslı bərpa işlərində yaxından iştirak edir. Prezident İlham Əliyev noyabrın 8-də Bakının Azadlıq meydanında Vətən müharibəsində Qələbənin beşinci ildönümünə həsr olunmuş Hərbi paraddakı çıxışında qardaş ölkənin, şəxsən Prezident Rəcəb Tayyib Ərdoğanın Vətən müharibəsi günlərində Azərbaycana dəstəyini minnətdarlıq hissi ilə xatırlayaraq vurğulayıb: "Əziz qardaşım İkinci Qarabağ müharibəsinin ilk saatlarından başlayaraq Azərbaycana, Azərbaycan xalqına, Azərbaycan Ordusuna öz dəstəyini göstərirdi. Onun verdiyi siyasi və mənəvi dəstək bizə əlavə güc verirdi, bizi ruhlandırırdı. Qardaş Türkiyə xalqı hörmətli Prezident Ərdoğanın liderliyi ilə Azərbaycana müntəzəm olaraq dəstək göstərmişdir. Müharibə zamanı onun "Azərbaycan tək deyil, Türkiyə Azərbaycanın yanındadır!" deməsi bütün dünyaya çox ciddi mesaj idi. Azərbaycan xalqı bu qardaş dəstəyini heç vaxt unutmayacaq".

Öz növbəsində Azərbaycan da ən çətin vaxtlarında Türkiyəni tək buraxmır. Azərbaycan indiyədək Ermənistanın qardaş ölkəyə qarşı irəli sürdüyü saxta soyqırımı və ərazi iddialarının beynəlxalq səviyyədə ifşa olunmasında mühüm rol oynayıb. 2016-cı il iyulun 15-dən 16-na keçən gecə Türkiyədə xəyanətkar qüvvələr tərəfindən dövlət çevrilişinə cəhd göstərildi. Təbii ki, həmin gecə Azərbaycan xalqının da ürəyi qardaş Türkiyə ilə döyünürdü. Dövlət çevrilişinə cəhd hadisələri Azərbaycanın siyasi rəhbərliyi, şəxsən Prezident İlham Əliyev tərəfindən birmənalı şəkildə qınanıldı və Türkiyənin qanuni hakimiyyətinə həmrəylik nümayiş etdirildi.

2023-cü il fevralın 6-da Türkiyə dəhşətli zəlzələ xəbəri ilə silkələndi. Episentri Kahramanmaraş şəhərinə düşən 7,7 və 7,6 bal gücündəki dağıdıcı zəlzələ qardaş ölkənin tarixində ən faciəvi səhifələrdən biridir. Həmin faciə zamanı da Azərbaycan Türkiyəni tək buraxmadı. Dövlətimizin başçısının bildirdiyi kimi, Azərbaycan xalqı bu faciəni öz faciəsi kimi qəbul etdi. İlk gündən on minlərlə azərbaycanlı Bakıda, Azərbaycanın müxtəlif şəhərlərində insani yardım göstərmək üçün məntəqələrə gəlib öz qardaşlıq borcunu yerinə yetirməyə başlamışdır.

Kahramanmaraşda Prezident İlham Əliyevin xüsusi tapşırığı əsasında "Azərbaycan" məhəlləsinin yaradılması ölkəmizin Türkiyəyə qardaşlıq dəstəyinin daha bir nümunəsidir. Məhəllənin tikintisinə 100 milyon ABŞ dolları (170 milyon AZN) vəsait ayrılıb və tikinti işləri Azərbaycanın Mənzil İnşaatı Dövlət Agentliyi tərəfindən həyata keçirilib. 27,6 hektarlıq ərazini əhatə edən məhəllədə 1194 mənzildən ibarət 68 yaşayış binası, Heydər Əliyev adına ibtidai məktəb, uşaq bağçası, mədəniyyət mərkəzi və digər sosial obyektlər inşa olunub. "Azərbaycan" məhəlləsinin Baş planı üzrə 7, 8, 11 və 12-ci kvartalların tikintisi tamamlanıb. 4 kvartalda 26 yaşayış binası yerləşir. Binalar hamısı 4 mərtəbəlidir. Bu binalarda, ümumilikdə, 456 mənzil, 328 qeyri-yaşayış obyekti inşa edilib.

Azərbaycanın qardaşlıq dəstəyi Türkiyə dövləti və cəmiyyəti tərəfindən yüksək qiymətləndirilib. Azərbaycan FHN-nin xilasedicilərinin, Müdafiə Nazirliyinin Tibb Xidməti əməkdaşlarının və zəlzələdən sonra Türkiyəyə gedən gənc könüllülərin bir qismi "Yüksək Fədakarlıq Ordeni və Medalı" ilə təltif edilib. "Əlbəttə, əziz qardaşlar, bu çətin dövrdə ölkəmizin köməyinə ilk gələnlərdən biri Can Azərbaycandır. Fəlakət xəbərini alar-almaz "Səninləyəm, Türkiyəm!" deyərək qardaş köməyi başladan, avtomobilinin tavanına varını-yoxunu yığaraq millətimizə kömək etməyə çalışan, duaları, dəstəkləri, səmimi göz yaşları ilə kədərimizi bölüşən Azərbaycan xalqının həmrəyliyini heç vaxt unuda bilmərik və unutmayacağıq. Xüsusilə, İlham qardaşımızın və hörmətli həyat yoldaşı Mehriban xanımın yardım səfərbərliyimizə verdiyi böyük töhfənin könlümüzdə daim ayrı bir yeri var", - deyə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan vurğulayıb.

### Şuşa Bəyannaməsi ilə rəsmiləşən Azərbaycan-Türkiyə müttəfiqliyi

Prezident İlham Əliyev dəfələrlə belə bir fikri ifadə edib ki, Azərbaycan və Türkiyə onsuz da müttəfiqlər idilər, ancaq Şuşa Bəyannaməsi ilə bu müttəfiqlik rəsmiləşdi. Azərbaycanla Türkiyə arasında 2021-ci il 15 iyun tarixində imzalanan Şuşa Bəyannaməsi müstəqillik, suverenlik, ərazi bütövlüyü, beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı, dövlətlərin daxili işlərinə qarışmamaq prinsiplərini rəhbər tutan, milli maraq və mənafelərini müdafiə və təmin etməyə yönəlmiş müstəqil xarici siyasət həyata keçirən hər iki ölkə tərəfindən müttəfiqlik münasibətlərinin qurulmasının siyasi və hüquqi mexanizmlərini müəyyənləşdirmək baxımından mühüm əhəmiyyət daşıyır. Bəhs olunan sənəddə Vətən müharibəsində Azərbaycanın şanlı qələbəsi sayəsində regionda yaranan yeni reallıqlar nəzərə alınıb. Bəyannamədə müharibədən sonrakı mərhələdə Qafqaz regionunda sabitliyin, təhlükəsizliyin möhkəmləndirilməsi, bütün iqtisadi-nəqliyyat əlaqələrinin bərpası, eləcə də region dövlətləri arasında münasibətlərin normallaşdırılması və uzunmüddətli sülhün təmin edilməsi istiqamətində birgə səylərin artırılmasının zəruriliyi vurğulanıb.

Bəyannamədə tərəflərdən hər hansı birinin müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına və ya təhlükəsizliyinə qarşı üçüncü dövlət və ya dövlətlər tərəfindən təhdid və ya təcavüz edildiyi təqdirdə, birgə məsləhətləşmələr aparılması, bu təhdid və ya təcavüzün aradan qaldırılması məqsədilə BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə müvafiq təşəbbüs həyata keçirilməsi, BMT Nizamnaməsinə uyğun olaraq bir-birinə lazımi yardım göstərilməsi, Silahlı Qüvvələrin güc və idarəetmə strukturlarının əlaqələndirilmiş fəaliyyətinin təşkili nəzərdə tutulur.

### Türkiyənin Cənubi Qafqazda sülhyaratma prosesinə davamlı dəstəyi

Qalib Azərbaycanın yaratdığı yeni reallıqlar Ermənistanın işğalçılıq siyasətinə görə otuz il ərzində münaqişə meydanına çevrilən Cənubi Qafqazda sülhün, təhlükəsizliyin və əməkdaşlığın təmin olunması üçün geniş imkanlar açıb. Respublikamız müharibə başa çatdıqdan sonra o mövqedən çıxış etdi ki, yaranan imkanlardan istifadə olunmalı və regionda müharibə səhifəsi birdəfəlik bağlanmalıdır. Bu proses Prezident İlham Əliyevin davamlı səyləri sayəsində irəlilədi. Cari il avqustun 8-də Vaşinqtonda, Ağ Evdə, dünyanın bir nömrəli ofisində Azərbaycanın və Ermənistanın xarici işlər nazirləri tərəfindən "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında Saziş" paraflandı. Bununla Azərbaycan və Ermənistan otuz ildən artıq davam edən münaqişəyə son qoymaq niyyətlərini və sülhə sadiq olduqlarını təsdiqləmiş oldular.

Beləliklə, onilliklər ərzində müharibə riskləri, təhdidlərlə üz-üzə dayanmış Cənubi Qafqaz regionu heç vaxt olmadığı qədər sülhə yaxındır. Artıq bir çox cəhətdən son dərəcə həssas coğrafiyada müharibəsiz yeni bir dönəm başlayır. Vaşinqtonda Prezident Donald Trampın vasitəçiliyi ilə paraflanan sənəddə iki ölkənin gələcək münasibətlərinin təməl prinsipləri öz əksini tapıb ki, bu da tərəflər üçün böyük məsuliyyət yaradır.

Postmüharibə dövründə Azərbaycanın təşəbbüsü ilə başlayan sülhyaratma prosesinə Türkiyə lap əvvəldən dəstək verib. Qardaş ölkənin siyasiləri, o cümlədən də Prezident Rəcəb Tayyib Ərdoğan dəfələrlə Azərbaycanla Ermənistan arasında ikitərəfli formatda aparılan müzakirələri alqışladıqlarını bildiriblər. Türkiyə həmçinin regionda nəqliyyat bağlantılarının inkişafının, o cümlədən də Zəngəzur dəhlizinin (Tramp marşrutunun) yaradılmasının tərəfdarıdır. Ankara özünün Cənubi Qafqaz siyasətinə gələcəkdə də sadiq qalacaq. Bunu diqqətə çatdıran Rəcəb Tayyib Ərdoğan "Cənubi Qafqazda sabitliyin bərqərar olması və iqtisadi inkişaf üçün bundan sonra da əhdəmizə düşəni edəcəyik", - deyə vurğulayıb.

*Mübariz FEYİZLİ*

# Maliyyə islahatlarının yeni hədəfi

## IFMIS konsepsiyası büdcənin rəqəmsallaşmasına töhfə verəcək

Azərbaycanda yeni İnteqrəolunmuş Maliyyə İdarəetmə Sistemi (IFMIS) konsepsiyasının hazırlanması nəzərdə tutulur. Bu barədə Maliyyə Nazirliyinin aparat rəhbəri Natiq Həsənov Cənubi Koreyanın Fiskal İnformasiya Xidməti ilə birgə keçirilən "Koreya-Azərbaycan IFMIS Seminarı"nda bildirib. Qeyd edib ki, yeni layihənin məqsədi maliyyə idarəçiliyinin rəqəmsallaşdırılması prosesini sürətləndirmək, dövlət maliyyə nəzarətinin daha da gücləndirilməsi üçün qabaqcıl beynəlxalq təcrübələrlə tanış olmaq və tətbiq etməkdir. Bu prosesin həyata keçirilməsində Koreyanın Fiskal İnformasiya Xidməti Azərbaycana öz dəstəyini göstərəcək. Xidmət IFMIS konsepsiyasının hazırlanması və "dBrain+" təcrübəsinin öyrənilməsində yaxın tərəfdaş seçilib.

### Rəqəmsal büdcə idarəçiliyi

Maliyyə sektorunda aparılan genişmiqyaslı rəqəmsallaşma prosesi idarəçilikdə də bir sıra mühüm meyarları nəzərə almağı tələb edir. Ölkə başçısının "Dövlət maliyyəsinin səmərəli idarə edilməsinin təşkili ilə bağlı əlavə tədbirlər haqqında" müvafiq fərmanına uyğun olaraq maliyyə idarəetməsi sahəsində rəqəmsal islahatların daha da sürətləndirilməsi üçün hüquqi və institusional bazanın formalaşdırılması nəzərdə tutulub. Sənədə əsasən, ölkəmizdə fiskal siyasətin təkmilləşdirilməsi, dövlət maliyyəsi, mühasibat uçotu, dövlət xəzinədarlığı və dövlət maliyyə nəzarəti sahəsində islahatlar aparılması, dövlət büdcəsi gəlirlərinin formalaşma mənbələrinin təkmilləşdirilməsi, dövlət büdcəsi xərclərinin optimallaşdırılması, habelə rəqəmsal texnologiyalar və innovasiyalar tətbiq edilməklə səmərəli icra və nəzarət mexanizminin yaradılması nəzərdə tutulur. Eyni zamanda, büdcə planlaşdırılması və icrası, mühasibat uçotu, dövlət borcunun idarə olunması və auditi əhatə edən proseslərin vahid yanaşma əsasında təmin edilməsi də bu strateji prioritetə daxildir.

Dövlət maliyyəsinin səmərəli idarə edilməsində əsas meyarlardan biri rəqəmsal idarəçilikdir. Bu məqsədlə maliyyə sistemində "Rəqəmsal dövlət maliyyəsi" elektron resursları yaradılmaqdadır. Həmin resurslarda büdcə, vergi, gömrük, dövlət rüsumu, dövlət mülkiyyətində olan və paylarının və səhmlərinin nəzarət zərfi dövlətə məxsus hüquqi şəxslər və dövlət adından yaradılan publik hüquqi şəxslər üzrə dividendlərin və digər büdcə daxilolmalarının, habelə audit, mühasibat uçotu, dövlət maliyyə nəzarəti, dövlət xəzinədarlığı, dövlət borcu sahələrinin və maliyyə öhdəliklərinin hərəkəti üzrə ən kiçik informasiyalar bu resurslarda yerləşdiriləcək. Əsas məqsəd bu bazada yerləşən maliyyə-fiskal büdcə hərəkətlərinin şəffaf izlənilməsi və nəticədə səmərəli idarəetmə arxitekturasının qurulmasıdır.

### IFMIS hesabatlılığı və şəffaflığı təmin edir

"Rəqəmsal dövlət maliyyəsi" konsepti ilə bərabər, yeni Maliyyə İdarəetmə Sistemi də büdcə siyasətinin optimallaşdırılmasında mühüm yer tutur. Belə ki, IFMIS müasir rəqəmsal strategiya kimi gəlir və xərcləri izləmək, investisiyaları optimallaşdırmaq, riskləri azaltmaq və uzunmüddətli maliyyə sabitliyini təmin etmək məqsədi daşıyır. Maliyyə idarəetməsi sadəcə gəlir və xərcləri izləməklə məhdudlaşmır. O, eyni zamanda, büdcə planlamasını, vergilərin idarə edilməsini, borc və aktivlərin düzgün bölüşdürülməsini, investisiya qərarlarının verilməsini və risklərin qiymətləndirilməsini əhatə edir. Bu baxımdan IFMIS büdcə və maliyyə ilə bağlı qısamüddətli və uzunmüddətli maliyyə hədəflərini müəyyən etməyə, maliyyə sabitliyini möhkəmləndirməyə, riskləri azaltmağa və gəlirliliyi artırmağa töhfə verir. Eləcə də, xərclərə nəzarət və optimallaşdırma baxımından əhəmiyyət kəsb edir. Həmçinin, borc və öhdəliklərin idarə edilməsi, borc yükünün azaldılmasında bu sistemin əhəmiyyəti böyükdür. Bundan başqa, IFMIS mükəmməl alət kimi düzgün investisiya strategiyalarının tətbiq edilməsinə imkan verir. Ən mühüm üstünlüklərdən biri də sistemin hesabatlılığın və şəffaflığın təmin edilməsində roludur.



### Cənubi Koreyanın dəstəyi ilə...

Qeyd edilən meyarlara əsaslanaraq ölkəmizdə IFMIS-ə keçid istiqamətində addımlar atılmaqdadır. Yeni sistemin tətbiqi üçün Maliyyə Nazirliyinin əməkdaşları bir neçə ay əvvəl Koreyaya ezam edilərək "dBrain+" sistemlərini mənimsəyib. Habelə, Cənubi Koreyanın Fiskal İnformasiya Xidməti ilə institusional idarəetmə modelinin tətbiqi barədə razılıq əldə edilib. Bu gün dövlət maliyyəsinin idarə edilməsində müasir rəqəmsal alətlərin həllində aparıcı dövlətlərdən biri olan Cənubi Koreya ilə əməkdaşlıq hökumətin maliyyə resurslarının idarə edilməsi üçün yeni baxışlarına əsaslanır. Xüsusilə də Koreya Fiskal İnformasiya Xidmətinin rəqəmsal büdcə sahəsində təcrübəsi beynəlxalq sistemdə böyük maraq doğurmadadır. Xidmətin prezidenti Seok Ho Yoon vurğulayıb ki, ölkəsinin müvafiq qurumları Azərbaycanla təcrübə və qabaqcıl texnoloji həllərin paylaşılması prosesinə yaxından dəstək göstərməyə hazırdır. Bu baxımdan Koreya təcrübəsi əhəmiyyət daşıya bilər.

*E.CƏFƏRLİ*

# Bakı-Vaşinqton əlaqələri yeni mərhələdə

## “Ortaq baxışlar: Strateji tərəfdaşlıq naminə Azərbaycan-ABŞ dialoqu” forumu keçirilib

Azərbaycan dövlətinin yürütdüyü praqmatik, əməkdaşlığa istinad edən, xüsusilə bərabərhüquqlu şəkildə qarşılıqlı maraqların qorunmasını özündə birləşdirən siyasət ölkəmizi dünyada etibarlı tərəfdaş kimi xarakterizə edir. Bakı bölgədə formalaşan reallıqlar əsasında vacib və müasir çağırışlara əsaslanan konfiqurasiya yaradır, yeni siyasi-iqtisadi nizama töhfə verir. Bu isə əməkdaşlıqda maraqlı olan dövlətlər üçün əlaqələrin daha da gücləndirilməsi perspektivini ön plana çəkir. Həm çoxtərəfli, həm də ikitərəfli əlaqələrin inkişafına xüsusi önəm verən Azərbaycanın bu geniş diapazonlu fəaliyyəti dünyanın aparıcı dövlətləri tərəfindən də təqdir olunur. Rəsmi Bakı ilə strateji təmasların gücləndirilməsi istiqamətində atılan addımlar bunu təsdiqləyir. Xüsusi olaraq qeyd edilməlidir ki, bu məsələ güc mərkəzlərinin də gündəliklərində ən aktual prioritet kimi göstərilir. Bu mənada, Azərbaycan ilə ABŞ arasındakı münasibətlər xüsusilə diqqəti cəlb edir. Qeyd edilməlidir ki, Donald Trampın yenidən dövlət başçısı seçilməsi ilə ABŞ - Azərbaycan münasibətləri yeni mərhələyə qədəm qoyub - son dövrlərdə daha yüksək temp qazanan əməkdaşlıq əlaqələri bu mənada, xüsusi vurğulanmalıdır. Avqustda Vaşinqtonda keçirilən görüşlər, iki ölkə Prezidentinin Azərbaycan ilə ABŞ arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə Strateji İşçi Qrupunun yaradılması haqqında Anlaşma Memorandumunu imzalaması münasibətləri yeni mərhələyə daşıyır. ABŞ ilə Azərbaycan arasında əməkdaşlığın inkişafının perspektivləri aydın və çoxşaxəlidir - rəsmi Vaşinqton ölkəmizin regionda yaratdığı yeni reallıqları yüksək dəyərləndirir. Bu isə ABŞ-ın Azərbaycanın yaxın tərəfdaşı olması həqiqətini növbəti dəfə nümayiş etdirməklə yanaşı, əlaqələri daha da möhkəmləndirməkdə maraqlı olduğunu sübut edir. Bakıda Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin (BMTM) təşkilatçılığı ilə keçirilən “Ortaq baxışlar: Strateji tərəfdaşlıq naminə Azərbaycan-ABŞ dialoqu” mövzusuna həsr edilən Azərbaycan-ABŞ Beyin Mərkəzlərinin birinci Forumu da məhz bu reallıqların mühüm təzahürüdür. Tədbirdə çıxış edən BMTM rəhbəri Fərid Şəfiyev forumun əhəmiyyətindən danışdı. O vurğulayıb ki, 8 avqust görüşü Azərbaycan-ABŞ əməkdaşlığı üçün yeni imkanlar açır. Son 30 il ərzində əməkdaşlığımız əsasən enerji sektorunda olub, lakin hazırda digər sahələrdə də tərəfdaşlıq üçün geniş perspektivlər mövcuddur.





### Səfirlərimiz Beyin Mərkəzləri ilə bağlı müzakirələri diqqətlə izləməlidir

Forumda çıxış edən ADA Universitetinin rektoru Hafiz Paşayev qeyd edib ki, səfirlərimiz Beyin Mərkəzləri ilə bağlı müzakirələri diqqətlə izləməlidir. “Vaşinqtona getdiyim ilk gündən ABŞ-da gördüyüm çoxsaylı maraqlı məqamlar diqqətimi çəkib. Məni ən çox təəccübləndirən isə Beyin Mərkəzlərinin geniş şəbəkəsi və onların intensiv fəaliyyəti olub. Həmin illər ərzində yeni dostlar qazandığımı və müxtəlif ölkələrin ABŞ-da özlərini necə təqdim etdiklərini xatırlayıram. O dövrdə, Azərbaycandan ABŞ-a səfər edənlər çox az idi və diplomatiya mənim üçün tamamilə yeni bir sahə sayılırdı. ABŞ-da Azərbaycan barədə məlumat isə kifayət qədər deyildi, ölkəmizi tanımırdılar. Lakin bu gün dünyanın bir çox ölkəsində Azərbaycana böyük maraq göstərilir”, - deyə H.Paşayev vurğulayıb.

Atlantik Konsul Beyin Mərkəzinin Avrasiya şöbəsinin baş direktoru Con Herbst bildirib ki, ilk Azərbaycan-ABŞ forumunun keçirilməsi gələcəkdə genişlənən əməkdaşlığa, Bakı-Vaşinqton qarşılıqlı işbirliyinə töhfə verəcək. Biz Azərbaycan və Mərkəzi Asiya ölkələri ilə müxtəlif formatlarda sıx əməkdaşlıq edəcəyik ki, belə forumlar gələcəkdə də keçirilsin. “Azərbaycan Prezidenti İlham Əliyev və ABŞ Prezidenti Donald Tramp arasında keçirilmiş görüşlərin nəticələri həm Azərbaycan, həm də regionun qonşu dövlətləri üçün olduqca uğurlu hesab edilir. ABŞ-Azərbaycan münasibətlərində dönüş nöqtəsi isə Prezident İlham Əliyev, Prezident Donald Tramp və Baş nazir Nikol Paşinyan arasında imzalanan vacib sənəd oldu. Bu, Ermənistan ilə Azərbaycan arasında sülh sazişinin imzalanması üçün mühüm bir zəmin yaradıb”, - deyə Con Herbst əlavə edib.

### Azərbaycanın qazandığı Zəfər regionda yeni reallıqlar yaradıb...

“AnewZ” media qurumunun baş redaktor müavini Orxan Amaşovun moderatorluğu ilə keçirilən sessiyada “Vaşinqton sammitinin qiymətləndirilməsi və ABŞ-Azərbaycan əlaqələrinə təsiri” mövzusu müzakirə olunub. Avrasiya Təhlükəsizlik və Rifah Proqramının Baş direktoru Kamran Bokhari Cənubi Qafqazda güclər balansının ciddi şəkildə dəyişdiyinə diqqət çəkib: “Azərbaycanın müharibədə qazandığı Zəfər regionda yeni reallıqlar yaradıb. Artıq Cənubi Qafqaz özü geniş geosiyasi dəhlizə çevrilə biləcək potensiala malikdir. Bu isə olduqca mühüm məsələdir”. O qeyd edib ki, Azərbaycanla Naxçıvanı birləşdirən, Ermənistandan keçməsi nəzərdə tutulan dəhliz də bu baxımdan strateji əhəmiyyət daşıyır. Müharibədən dərhal sonra iki dövlət arasında əldə edilən razılaşmalarda da bu məsələ xüsusi müzakirə olunub. “Tramp administrasiyası da bu marşruta xüsusi diqqət ayırıb, çünki həmin xətt Qərb-Şərq əlaqələrinin genişlənməsi üçün yeni imkanlar yaradır. Bu, eyni zamanda, ABŞ-ın Azərbaycanla münasibətlərində yeni bir mərhələ və Vaşinqtonun Cənubi Qafqaz regionuna indiyədək olmadığı qədər yaxınlaşması deməkdir”, - deyə Kamran Bokhari vurğulayıb.

O, Azərbaycanın regionda söz sahibi olan bir aktora çevrildiyinə diqqət çəkərək deyib: “Şimal və Cənub qonşularının strateji çətinliklərlə üzləşdiyi bir zamanda Azərbaycanın xüsusilə vasitəçilik sahəsində mühüm rol oynadığını görürük. Çünki ətraf ölkələr müharibələr və müxtəlif geosiyasi çaxnaşmalardan əziyyət çəkir. Azərbaycanın ətrafında proseslər sürətlə dəyişir və bu vəziyyət ölkə üçün yeni imkanlar yaradır. Düşünürəm ki, Azərbaycan bu imkanlardan uğurla istifadə edir”.

### İkitərəfli dialoqda dinamika...

Milli Məclisin deputatı Fariz İsmayılzadə bildirib ki, ABŞ-ın Xəzər regionuna artan marağı müşahidə edilir. Vaşinqton sənədlərinin imzalanması ABŞ-ın artan marağının çox mühüm bir mərhələsi olub. “Artıq ikitərəfli dialoqda dinamika var. Azərbaycanda iqtisadiyyatın digər sahələrinə, o cümlədən bərpaolunan enerji, nəqliyyat-logistika, texnologiyalar sahələrinə sərmayə, yeni gəlir gətirə biləcək istiqamətlərə diqqət yetirir. Düşünürəm ki, burada ABŞ-ın rolu çox vacib ola bilər. Burada ABŞ texnologiyasını, texnologiyaların transferini, investisiyaları nəzərdə tuturam. Ölkəmiz ABŞ-Azərbaycan münasibətlərinin bu yeni səhifəsinə iqtisadi və texnoloji inkişaf prizmasından baxır. Buraya, həmçinin süni intellekt də daxildir. Bu sahədə Azərbaycanın elə də böyük təcrübəsi yoxdur və biz ABŞ-dan öyrənə bilərik”.

Cənubi Qafqaz Tədqiqatlar Mərkəzinin sədri Fərhad Məmmədov isə ABŞ-ın sabiq Prezidenti Co Bayden administrasiyasının fəaliyyətini xatırladaraq bildirib: “Baydenin regionla bağlı apardığı siyasət gözlənilən nəticələri vermədi. Azərbaycan öz ərazilərini işğaldan azad etsə də, Bayden administrasiyası həmin dövrdə birtərəfli və qərəzli yanaşma nümayiş etdirdi. Bu yanaşma Azərbaycan ilə ABŞ arasındakı ikitərəfli əlaqələrin gərginləşməsinə səbəb oldu və erməni lobbisinin təsiri ABŞ-ın mövqeyini xeyli uğursuzlaşdırdı”.

F.Məmmədov Donald Trampın ABŞ-da prezident seçilməsinin Ermənistan hakimiyyətinə ciddi təsir göstərdiyini vurğulayıb. O, Tramp administrasiyasının məsələyə daha hüquqi balansla yanaşdığını qeyd edərək deyib: “Üçtərəfli Bəyannamə imzalandıqdan sonra Ermənistan və Azərbaycan bu formatı yeganə müzakirə platforması kimi qəbul edir. Həmin görüşdən sonra sülh müqaviləsinin hazırlanması istiqamətində konkret addımlar atılıb”.

**P.İSMAYILOV**

# Yeni Tərəfdaşlıq Strategiyasına başlanılır

## Asiya Bankı 2029-cu ilədək Azərbaycana 2,5 milyard dollar investisiya yönəldəcək

Dünyanın ən güclü maliyyə institutlarından biri olan, Asiya və Sakit Okean regionunda inkişaf proqramlarının maliyyələşdirilməsində əsas donor kimi tanınan Asiya İnkişaf Bankı (AİB) Azərbaycanla əməkdaşlığı daha da inkişaf etdirmək niyyətindədir. Kapital portfelinin böyük bir hissəsi Çinin maliyyəsi ilə formalaşan bu institut ölkəmizdə infrastruktur, nəqliyyat, su təchizatı və enerji, maliyyə, təhsil və səhiyyə sektorlarında müxtəlif layihələrin maliyyələşdirilməsində ən etibarlı və dayanıqlı maliyyə təchizatçısı kimi tanınır. Bank növbəti mərhələdə ölkəmizdə digər layihələrdə də dayanıqlı maliyyə dəstəkçisi olacağını bəyan edib. Azərbaycanda səfərdə olan AİB-in prezidenti Masato Kanda hökumət üzvləri ilə keçirdiyi görüşlərin yekununda bildirib ki, bank 2029-cu ilədək Azərbaycana 2,5 milyard dollaradək investisiya ayıracaq.

Qeyd edək ki, Prezident İlham Əliyevin noyabrın 14-də Asiya İnkişaf Bankının prezidenti Masato Kanda ilə görüşündə səmərəli əməkdaşlığa toxunulub, birgə layihələrin uğurlu icrası qeyd edilib. AİB rəhbəri Azərbaycanda dövlət sektoru ilə yanaşı, özəl sektorda yeni layihələrin maliyyələşdirilməsində öz dəstəyini davam etdirəcəyini vurğulayıb. Xüsusilə də, Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin irəli aparılması istiqamətində Vaşinqtonda əldə edilmiş nailiyyətlərin regionda yeni imkanlar yaradacağına əminliyini ifadə edən AİB prezidenti nəqliyyat-tranzit layihələrinə böyükhəcmli kapital yatırmaq imkanlarının perspektivlərinə də müsbət yanaşıb.

### 26 illik maliyyə etimadına söykənən əməkdaşlıq...

Asiya Bankı 26 ilə yaxındır ki, ölkəmizdə infrastruktur, nəqliyyat, su təchizatı və enerji, maliyyə, təhsil və səhiyyə sektorlarında müxtəlif layihələrin maliyyələşdirilməsində ən yaxın tərəfdaş kimi təmsil olunmaqdadır. AİB Azərbaycanda həyata keçirilən müxtəlif layihələrin maliyyələşdirilməsinə 5,6 milyard dollar həcmində maliyyə ayrılmasını təmin edib. Onun 4,4 milyard dolları dövlət sektoruna, 1,2 milyard dolları isə özəl sektora yönəldilib.

Həmin layihələr sırasında dəmir yolu infrastrukturunun müasirləşdirilməsi də xüsusi yer tutur. AİB Sumqayıt-Yalama dəmir yolu xəttinin yenidən qurulması layihəsinin maliyyələşdirilməsi üçün ölkəmizə 150 milyon dollar kredit ayırıb, layihənin başa çatdırılması üçün əlavə tələb olunan 131,5 milyon dollar məbləğində maliyyələşməni təmin edib. Bununla yanaşı, dəmir yolu sektorunun maliyyə davamlılığının artırılması üzrə həyata keçirilən islahatların dəstəklənməsi məqsədilə 2017-ci ildə bank tərəfindən “Dəmir yolu sektorunun inkişafı proqramı” çərçivəsində 250 milyon dollar məbləğində kredit vəsaitləri ayrılıb.

### AİB “Maneəsiz Rəqəmsal Dəhliz”i maliyyələşdirir

AİB son dövrlərdə Orta Dəhlizin maliyyə donoru kimi də aktiv fəaliyyət göstərir. Bank həmin nəqliyyat ekosisteminin altmodeli olan vahid multimodal xidmət - Rəqəmsal Ticarət Koridorunun (Digital Trade Corridor) yaradılmasını maliyyələşdirib ki, bu da “Avrasiya Nəqliyyat Marşrutu”nun rəqəmsallaşmasında və “Maneəsiz Rəqəmsal Dəhliz” sisteminin qurulmasında mühüm rol oynamaqdadır. Asiya Bankının kapital portfelinin böyük bir hissəsinin Çinin maliyyə donorluğu əsasında formalaşmasını nəzərə alsaq “Bir kəmər, bir yol”un müəllifi kimi rəsmi Pekinin Orta Dəhlizdəki rəqəmsal infrastrukturların müasirləşməsinə böyük marağını başa düşmək mümkündür. Bu baxımdan AİB-in dəhliz üzərində yerləşən ölkələrə, o cümlədən Azərbaycana dəmir yollarının rəqəmsallaşmasına dəstəyi də prioritet təşkil edir.



Bundan başqa, AİB Azərbaycanın regional enerji layihələrinin maliyyələşdirilməsində də donor kimi fəal rol oynayıb, Cənub Qaz Dəhlizi layihəsinə dəstək verən ilk beynəlxalq maliyyə qurumu olub. Avropa İttifaqının enerji təminatında xüsusi rol oynayan bu layihələri də maliyyələşdirməyi öz öhdəsinə götürərək “Şahdəniz” yatağının maliyyələşdirilməsinə 524,5 milyon dollar məbləğində tam şəkildə zəmanət verib.

Ümumilikdə, Asiya Bankı təkcə nəqliyyat sektorunda həyata keçirilən layihələrə 1,5 milyard, enerji layihələrinə isə 1,7 milyard dollar maliyyə dəstəyi göstərib.

### Sahibkarların kredit təminatçısı

Həmçinin dövlət maliyyə idarəçiliyinin gücləndirilməsi, dövlət borcunun idarə edilməsi üzrə ortamüddətli strategiya sənədinin hazırlanması, dövlət müəssisələrinin idarə edilməsində şəffaflığın və effektivliliyinin artırılması, eləcə də dövlət büdcəsinin fiskal qayda və orta müddətli fiskal çərçivə əsasında hazırlanaraq təqdim olunması məqsədilə hökumət tərəfindən həyata keçirilən islahatların dəstəklənməsinə AİB tərəfindən 500 milyon dollar məbləğində kredit vəsaitləri ayrılıb.

Asiya Bankı koronavirus pandemiyası dövründə də Azərbaycanla sıx işləyərək COVİD-19-la bağlı dünya enerji və səhm bazarlarında baş verən kəskin dalğalanmaların Azərbaycan iqtisadiyyatına, makroiqtisadi sabitliyə, ölkədə məşğulluq məsələlərinə, sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılmasında hökumətin həyata keçirdiyi tədbirlərə dəstək verib, “COVİD-19-a Aktiv Cavab və Xərcin Dəstəklənməsi Proqramı” çərçivəsində 250 milyon dollar məbləğində kredit maliyyələşməsini təmin edib. Azərbaycanda sahibkarlığın inkişafı, biznesə dəstək də AİB-in diqqətində xüsusi yer tutub və sahibkarların maliyyə təminatında əsas donorlardan biri kimi çıxış edir.

### 2025-2029-cu illərə dair yeni prioritetlər

Qeyd edək ki, Masato Kandanın ölkəmizə səfəri çərçivəsində Azərbaycanla AİB arasında növbəti əməkdaşlıq proqramının - “2025-2029-cu illərə dair Ölkə Tərəfdaşlığı Strategiyası”nın rəsmi icrasına start verilib. Yeni strateji konsepsiya Bakı metrosunun genişləndirilməsi, Bakı şəhəri və ətraf ərazilərdə nəqliyyat infrastrukturunun, içməli su təchizatının, su itkilərinin azaldılması və yağış sularının idarə edilməsi sahələrində həyata keçiriləcək layihələrdə, eləcə də dəmir yolu infrastrukturunun modernləşdirilməsi və digər infrastruktur layihələrini əhatə edir.

2025-2029-cu illər ərzində AİB-lə Azərbaycan Respublikası arasında əməkdaşlıq əsasən bərpaolunan enerji və “yaşıl nəqliyyat” sahələrini əhatə edəcək. Bu istiqamətdə, AİB tərəfindən növbəti illər ərzində regional nəqliyyat sistemləri vasitəsilə regional əməkdaşlığın gücləndirilməsi, habelə “Şimal-Cənub” və Orta Dəhliz çərçivəsində dəmir yolu sektorunda nəzərdə tutulan işlərin tamamlanması və Bakı şəhərində mobilliyin artırılmasında hökumətə dəstək verilməsi nəzərdə tutulur. M.Kanda vurğulayıb ki, bank Azərbaycanın Mərkəzi Asiya ilə Avropanı birləşdirən regional haba çevrilməsinə dəstək verməyə sadiqdir və nəqliyyat sahəsində rəqəmsallaşdırma və digər texnoloji innovasiyaların inkişafına əhəmiyyətli investisiyalar qoyulacaq.

Beləliklə, M. Kandanın ölkəmizə səfəri Azərbaycan və AİB arasında sıx əməkdaşlıq əlaqələrinin davam etdirilməsi və yeni səhifənin açılması üçün yaxşı imkanlar yaradır. Qarşıda yeni hədəf və layihələrin icrası dayanır, bu Azərbaycanın təşəbbüskar olduğu regional layihələrin, o cümlədən Xəzəryanı ölkələrlə və digər region dövlətləri ilə güclü iqtisadi bağlantının yaradılması üçün müasir enerji-nəqliyyat qovşaqlarının maliyyələşdirilməsində AİB-in yenə də əsas maliyyə dayağı olacağına əsaslı zəmin yaradılması deməkdir.

**E. CƏFƏRLİ**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği” istiqaməti üzrə hazırlanmışdır

# Keçmişdən gələcəyə uzanan körpü...

## Ənənələrimizi yaşatmaq hər birimizin məsuliyyətidir

*Yeganə*

Azərbaycan minilliklərin sınağından keçərək bu gün müasir dünyada öz sözünü deyən, qədim ənənələrini qoruyaraq yeniləşən bir ölkədir. Etiraf edək ki, qloballaşan dünyada xalqlar öz dəyərlərini itirmək təhlükəsi ilə üz-üzə qalır. Azərbaycan isə tarixdən aldığı güc və mədəniyyətindən doğan qürurla bu axına qarşı müdrik dayanmağı bacaran nadir ölkələrdəndir.

Dövlətçilik ənənələrimizi, milli adət-ənənələrimizi və mədəni irsimizi tanıtmaq, bu dəyərləri gələcək nəsillərə ötürmək hər birimizin missiyasıdır. Milli adət-ənənələrimiz, elmi və mədəni irsimiz təkcə keçmişin xatirəsi deyil, bu, gələcəyə aparan yol xəritəsidir. Bu dəyərlərin təbliği isə sadəcə bir maarifçilik işi deyil, həm də kimliyimizi dünyaya tanıtmaq, onu qorumaq və inkişaf etdirmək kimi strateji əhəmiyyət daşıyan vəzifədir. Bu gün Azərbaycan gənci tarixinə bələd olmalı, mədəniyyətinə sahib çıxmalı, elmə töhfə verməlidir. Çünki dövlətin gücü onun vətəndaşının dəyərlərinə sahib çıxma gücü ilə ölçülür.

Mövzu ilə bağlı “Yeni Azərbaycan”a danışan millət vəkili Nəsib Məhəmməliyev bildirib ki, qədim və orta əsrlərdən bəri qonşu və uzaq dövlətlərin Azərbaycan mədəniyyəti haqqında təsəvvürü olub. Deputat qeyd edib ki, ölkəmizə gələn səyyahlar, diplomatlar, sənətkarlar öz ölkələrinə Azərbaycan mədəniyyəti, adət-ənənələri, dövlətçilik örnəkləri ilə bağlı kifayət qədər bilgi apara bilib: “Eyni zamanda Azərbaycan mədəniyyətinin çeşidli nümunələri öz ölkələrinə daşıyıblar. Bu gün dünyanın bir sıra nüfuzlu muzey və kitabxanalarında xalqımıza aid incilər-qədim əlyazmalar, kitablar, əşyalar, xalçalar, musiqi alətləri və s. saxlanır. Uzun zamanlar bu nümunələr xarici muzeylərdə başqa xalqların adı ilə təqdim edilib. Acı da olsa belədir... Lakin Azərbaycan müstəqillik qazandıqdan sonra xalqımız milli-mədəni dəyərlərimizə, soykökümüzə yenidən qayıtdı və bizim olanlara sahib çıxmağa başladı”.

Deputatın fikrincə, dövlətçilik tariximizin, milli adət-ənənələrimizin, elm və mədəniyyətimizin təbliği sahəsində görülən işlər misilsizdir. Bu gün Azərbaycan mədəniyyəti həm ölkə, həm də beynəlxalq səviyyədə ən müxtəlif istiqamətlərdə təbliğ olunur: “Artıq bütün dünya bilir ki, Azərbaycanın qədim dövlətçilik ənənəsi, zəngin tarixi, bənzərsiz mədəniyyəti, adət-ənənəsi, böyük dayaqları olan elmi var. Bütün bunların təbliği sahəsində görülən işlər sırasına beynəlxalq səviyyəli musiqi festivallarının keçirilməsi, simpoziumların, konfransların, toplantıların təşkili və başqa məsələlər daxildir. Azərbaycan mədəniyyəti dünyanın ən böyük ölkə və şəhərlərində təbliğ edilir.



Müasir Azərbaycan dövləti qədim dövlətçilik ənənələrinə olduqca saygı ilə yanaşır və o dövrlərin tarixinin araşdırılmasına böyük maraq göstərir. Bu da Azərbaycan elmi qarşısında yeni üfüqlər açır. Azərbaycan elmi tarixi həqiqətləri araşdırıb öyrənir və təbliğ edir. Azərbaycanın zəngin elm tarixinin mövcud olduğunu bilirik, bu gün həmin elm xəzinəsi də yenidən araşdırılır, nəşr edilir. Dövlətçilik tariximizə qayıdış o anlama gəlir ki, biz əcdadlarımızın zamanın ayaqları altında gizlənən izlərini tapmışıq və onların getdiyi yola süvar olmuşuq”.

N.Məhəmməliyevin sözlərinə görə, bu gün Azərbaycan xalqının əksər nümayəndələri tariximizin müxtəlif mərhələləri, həmçinin müstəqillik dövrü barədə kifayət qədər məlumatlıdırlar: “Hesab edirəm ki, müstəqillik dövründə milli-mənəvi dəyərlərin qorunmasına söykənən təbliğat işi əsasən 44 günlük Vətən müharibəsində öz bəhrəsini verib. Qeyd etmək yerinə düşər ki, Vətən müharibəsində heç zaman Qarabağda olmayan, həmin əraziləri yalnız mətbuatdan və dərsliklərdən tanıyan yeni nəsil Ali Baş Komandanın rəhbərliyi altında Zəfər çaldı. Bu, Azərbaycan gəncliyinin, eləcə də xalqının tariximizə olan diqqəti kimi dəyərləndirilməlidir.

Bəzən Avropa dəyərlərinin mənimsənilməsi və Avropaya inteqrasiya adı altında milli adət-ənənələrə zidd olan elementlərin təbliği təəssüf doğurur. Yəni milli dəyərlərimizlə uzlaşmayan elementlərin təbliği qəbuledilməzdir. Lakin biz istəsək də, istəməsək də, bu prosesin içindəyik və qloballaşmanın dalğası ilə üz-üzə qalmaq məcburiyyətindəyik. Sözsüz ki, qloballaşma nəticəsində bir çox xalqların, etnik qrupların dilləri və adət-ənənələri itib gedəcək. Deməli, yalnız o dövlətlər və xalqlar öz dilini, adət-ənənələrini qoruyub saxlaya biləcəklər ki, onlar öz tarixini yaşadır, milli-mənəvi dəyərlərini, elm-mədəniyyətini və folklorunu daim təbliğ edir. Milli kimliyini mühafizə edərək gənc nəslə ötürən cəmiyyət bir xalq və dövlət kimi daim mövcudluğunu qoruya bilər. Ona görə də hər bir Azərbaycan vətəndaşı dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliğinə ciddi önəm verməlidir”.

# Tarixi razılaşma əldə olundu

## Ukrayna Fransadan qırıcılar alacaq

Bugünlərdə Fransada Ukrayna üçün tarixi adlandırıla biləcək razılaşma əldə olunub. Söhbət Zelenski ilə Makron arasında Fransa istehsalı olan təxminən 100 ədəd “Rafale F4” döyüş təyyarəsinin alınmasına dair niyyət sənədinin imzalanmasından gedir. Qırıcıların Ukraynanın hava məkanının qorunması və müdafiə imkanlarını gücləndirmək məqsədilə tədarük olunacağı bildirilir. Bu barədə Ukrayna Prezidenti Volodimir Zelenski açıqlama verib.

### Çoxfunksiyalı “Rafale” qırıcıları

Fransanın milli istehsalı olan “Rafale” qırıcıları çoxfunksiyalı olması ilə fərqlənir. Fransız dilindən tərcümədə “Rafale” “külək qopması” və “atəş yağışı” mənasını verir.

“Rafale” “Dassault Aviation” tərəfindən hazırlanan ikimühərrikli çoxməqsədli hərbi təyyarədir. Şirkət təyyarənin kəşfiyyatdan gəmi hücumlarına qədər missiyaları yerinə yetirə bildiyini deyir. Təyyarənin 3 versiyası mövcuddur: quru bazalarından uçan təkoturacaqlı versiya, ikioturacaqlı versiya və aviadaşıyıcılar üçün nəzərdə tutulan təkoturacaqlı versiyası.

Təyyarə ilk dəfə 2004-cü ildə Fransa donanmasının, 2006-cı ildə isə Fransa Hərbi Hava Qüvvələrinin istifadəsinə verilib. O, dəfələrlə modernləşdirilib və ən yeni nəsil “Standard F5” versiyasının 2030-cu ildə hazır olması planlaşdırılır.

“Dassault” şirkəti oktyabr ayında 300-cü “Rafale” təyyarəsinin təhvil verildiyini açıqlayıb. İndiyədək Fransa və xarici dövlətlər tərəfindən 533 ədəd sifariş qəbul edilib. İxracatın ilk böyük alıcısı 2015-ci ildə Misir olub.

“Rafale” müxtəlif müharibə bölgələrində - Əfqanıstan, Mali, Liviya, İraq və Suriya əməliyyatlarında istifadə edilib. “Reuters”in məlumatına görə, Pakistan 2024-cü ildə Hindistana məxsus ən azı bir “Rafale”ni vurub ki, bu da təyyarənin nüfuzuna zərbə kimi qiymətləndirilib.

Qətər, Yunanıstan, Xorvatiya, BƏƏ, İndoneziya, Serbiya, eləcə də Hindistan və Misir bu təyyarənin müştəriləri sırasındadır. Ən böyük sifarişlərdən biri 2021-ci ildə BƏƏ tərəfindən verilən 80 ədəd “Rafale F4” olub.

Təyyarənin texniki göstəriciləri: uzunluğu 15 metrdən çoxdur. Qanadı açıq halda 11 metrdir. Boş olduqda təyyarənin çəkisi 10 tondur. Maksimum uçuş hündürlüyü 15240 metrdir. Fransa ordusu “Rafale” ilə nüvə başlıqlı raketləri daşıya bilir.



Qırıcının maraqlı yaranma tarixçəsi var. Gələcək təyyarə istifadə müddəti ərzində aşağı istismar xərclərinə, planer və güc qurğusunun artırılmış resursa malik olmalı, həmçinin asan texniki xidməti təmin etməli idi. Belə təyyarənin yaradılması xərclərini azaltmaq üçün Avropa firmalarının güclərini birləşdirməsi gərək idi. Lakin Fransa, Böyük Britaniya, Almaniya və İtaliya arasında “avroqırıcının” yaradılması üzrə bağlanılmış müqavilə ciddi problemlərlə üzləşmişdi: tərəflər təyyarənin qalxış çəkisi barədə razılığa gələ bilmirdilər. Fransa aviadaşıyıcı gəmilərdə istifadə etmək üçün qalxış çəkisi 9 ton olan təyyarə istəsə də, digər ölkələr 10 tondan yuxarı qalxış çəkisinə malik olan təyyarə arzulayırdılar.

Nəticədə Fransa ayrılaraq özü yolu ilə getməyi seçdi, digər ölkələr isə, “Eurofighter Typhoon” qırıcısının yaranmasına gətirib çıxaran ittifaqı təşkil etmiş oldular. 1985-ci ilin dekabrında “Dassault Aviation” şirkətinin Sen-Klodakı müəssisəsində aviakonstruktor Marsel Dassonun iştirakı ilə tamamilə ağ rəngə boyanmış “Rafale A” təyyarəsinin ilk nümayişi keçirildi. 4 iyul 1986-cı ildə isə təyyarə ilk dəfə olaraq səmaya qalxdı.

### Ukrayna müharibənin gedişində dönüş yarada biləcəkmi?

Qırıcıların tədarükü ərazi itkilərinə məruz qalan Ukrayna ordusunun müqavimət qabiliyyətini artırmaq və hücum imkanlarını genişləndirmək baxımından çox zəruridir. Kiyevin bu müqaviləsi Avropada təhlükəsizlik gündəmini yenidən canlandırıb. Kiyev Rusiya təhdidi fonunda hava qüvvələrini sürətlə modernləşdirməyə çalışır. “Rafale” sifarişi NATO daxilində də mühüm strateji addım kimi qiymətləndirilir.

Məlumdur ki, hazırda Kiyev Rusiyanın dərinliklərinə zərbələr endirmək üçün əsasən PUA-lardan istifadə edir və müəyyən nəticələrə nail olur. Lakin qırıcılar baha olsa da, manevr nöqteyi-nəzərindən böyük üstünlüklərə malikdir. Bundan əvvəl Zelenski ABŞ-dan “Tomahawk” raketlərinin alınmasına nail olmaq istəyirdi. Prezident Donald Tramp uzaqmənzilli raketlərin Ukraynaya tədarükünə əvvəlcə razı olduğunu bildirsə də, onun Prezident Putinlə danışığı ssenarini dəyişdi. Belə ki, ABŞ-ın dövlət başçısı səbəbləri açıqlamadan “Tomahawk” raketlərinin Kiyevə tədarükündən imtina etdi.

Bəs Fransa qırıcılarının tədarükü Rusiya-Ukrayna müharibəsinin gedişinə necə təsir göstərəcək? Əlbəttə, qırıcılara sahiblənmək Zelenskinin böyük uğurudur və bunun müharibənin gedişinə təsiri mütləq olacaq. Ancaq ekspertlər bu təsirin ilk vaxtlarda yalnız psixoloji təsir olacağını düşünürlər. Çünki qırıcıların Ukraynaya təhvil verilməsi və onlardan döyüşlərdə istifadə edilməsi anında, qısa müddətdə baş tutan bir proses deyil. Onların Ukraynaya mərhələli şəkildə göndərilməsi planlaşdırılır. Digər tərəfdən, qırıcıların döyüş hazırlığı vəziyyətinə gətirilməsi, ukraynalı pilotların hazırlanması vaxt tələb edəcək. Beləliklə, Ukrayna hələ bir qədər də səbr etməli və müharibəni əlindəki resurslarla davam etdirmək reallığı ilə üzüzədir. Rusiya üçün isə Fransa qırıcıları çəkindirici vasitə ola bilər. Gec-tez bu qırıcılar Rusiya səmasında görünəcək. Onda Moskva daha çətin seçim qarşısında qalacaq. Buna görə də Rusiya üçün ən yaxşı yol şərtləri yumşaltmaqla sülh prosesinə başlamadır.

*MÜBARİZ*

# “Reuters”: Tramp Rusiyaya qarşı sanksiyalarla bağlı qanun layihəsini imzalamağa hazırdır

ABŞ Prezidenti Donald Tramp Rusiyaya qarşı sanksiyaların sərtləşdirilməsini nəzərdə tutan qanun layihəsini bu məhdudiyyətlərin tətbiqi və ya tətbiq edilməməsi ilə bağlı yekun qərar vermək səlahiyyəti onun ixtiyarında olsa, imzalamağa hazırdır.

“Report”un məlumatına görə, bunu “Reuters” agentliyinə Ağ Evin yüksək vəzifəli nümayəndəsi bildirib.

“Ağ Ev və prezident üçün həmişə vacib olub ki, sanksiya paketi istisna maddə ilə təmin edilsin və yekun qərarvermə səlahiyyəti prezidentə aid olsun. Buna görə də əgər bu, qanun layihəsinin mətninə daxil edilsə, prezident onun imzalanması imkanını nəzərdən keçirərdi”, - deyə mənbə qeyd edib.

“Prezident bunu imzalayardı”, - Ağ Evin nümayəndəsi sözügedən qanun layihəsini nəzərdə tutaraq təkrar edib. O, Trampın ötən axşam bu qanunvericilik təşəbbüsünü faktiki olaraq dəstəklədiyini xatırladıb.

Eyni zamanda, Ağ Evin nümayəndəsi vurğulayıb ki, Rusiya və ABŞ arasında Rusiya-Ukrayna münaqişəsinin həlli ilə bağlı danışıqlar davam edir: “Biz, şübhəsiz ki, hələ də bunun üzərində işləyirik. Sadəcə, xəbərlərin mərkəzində deyildi, çünki çox şey baş verir”.

Xatırladaq ki, sözügedən qanun layihəsi aprelin əvvəlində Senatın iki partiyalı üzvlər qrupu tərəfindən təqdim olunub. Sənədin əsas müəllifləri Cənubi Karolinadan respublikaçı senator (Rusiyanın terrorçular və ekstremistlər siyahısına daxil edilmiş) Lindsi Qrem və Konnektikatdan demokrat senator Riçard Blyumental olub. Təşəbbüs Rusiyanın ticarət tərəfdaşlarına qarşı ikinci dərəcəli sanksiyaları da nəzərdə tutur. Qanunvericilərin təklifində Rusiyadan neft, qaz, uran və digər mallar alan ölkələrdən ABŞ-ya idxal üçün 500 faizlik gömrük rüsumlarının tətbiqi məsələsi var.



# Yaxın Şərq üçün plan təsdiqləndi...

## BMT Sülh Şurasının yaranmasına razılıq verdi

Qlobal təhlükəsizliyi təhdid edən əsas münaqişə ocaqlarından sayılan Yaxın Şərqə sabitlik gələ bilər. Belə ki, BMT Təhlükəsizlik Şurası Qəzzada Beynəlxalq Sabitləşdirmə Qüvvələrinin (ISF) yerləşdirilməsi ilə bağlı ABŞ-ın qətnaməsini qəbul edib. Təhlükəsizlik Şurası qətnamənin lehinə səs verib - səsvermənin nəticələrinə əsasən 13 lehinə və iki bitərəf səs verib. Qətnamənin əleyhinə səs verən olmayıb. ABŞ tərəfindən təqdim edilən mətndə İsrail və Misirlə əməkdaşlıq edəcək Beynəlxalq Sabitləşdirmə Qüvvələrinin (ISF) yerləşdirilməsi və orada keçid idarəetməsinin qurulması üçün mandatın verilməsi qeyd olunur.

Xatırladaq ki, oktyabrın 13-də Şarm əl-Şeyxdə Yaxın Şərq Sülh Sammitində bununla bağlı sülh sazişi imzalanmışdı. Sazişin imzalanması prosesində İsrail və HƏMAS-ın nümayəndələri iştirak etməmişdilər - sənədi 4 vasitəçi ölkə imzalamışdı: ABŞ, Qətər, Misir və Türkiyə. Dünyanın 20-dən artıq liderinin iştirakı ilə keçirilən mərasimdə imzalanan sənədin Qəzza zolağı ətrafındakı vəziyyətə müəyyən aydınlıq gətirəcəyinə ümid bəslənilirdi.



© Manuel Elias/Xinhua/IMAGO

### Sənədə əsasən...

Plan Qəzza zolağını sabitləşdirmək üçün beynəlxalq qüvvələrin yaradılmasını və Avropa Birliyi, Böyük Britaniya və ABŞ tərəfindən terror təşkilatı kimi tanınan radikal islamçı HƏMAS hərəkatının tərksilah edilməsini tələb edir. Həmçinin keçid Fələstin Muxtariyyətinin yaradılmasını özündə əks etdirir. Donald Trampın müəllifi olduğu planda 20 bənd üzrə görülməsi nəzərdə tutulan işlərin müəyyən mərhələlər üzrə aparılması yer alır. Əsas mərhələ sayılan 3-cü mərhələdə idarəetmə və yenidənqurma işlərinə start verilməsi planlaşdırılır. Bu mərhələdə Fələstin texnokratlarının rəhbərlik etdiyi və gündəlik həyatı idarə etmək və infrastrukturun bərpasına nəzarət etmək üçün beynəlxalq qurum tərəfindən nəzarət edilən keçid administrasiyasının yaradılması planlaşdırılır. Humanitar yardımın çatdırılmalarının səmərəliliyini və ədalətliliyini təmin etmək üçün BMT və Qızıl Aypara kimi beynəlxalq təşkilatlar da prosesdə nəzarətçi kimi iştirak edəcək. Bundan əlavə, icmaların yenidən qurmağı seçənlərə dəstək verməklə fələstinliləri Qəzzada qalmağa təşviq etmək planlaşdırılır. Strategiya Fələstinin uğurlu yenidənqurmasını təmin edəcək. Uzunmüddətli sülhə yol açmaq üçün İsrail və Fələstin arasında dinc yanaşı yaşama və qarşılıqlı anlaşmaya kömək edən siyasi struktur yaratmaq üçün dialoqa başlanılacaq. Qəzza hökumət xidmətlərinin və bələdiyyələrin gündəlik əməliyyatlarına cavabdeh olan texnokratik, apolitik Fələstin komitəsi tərəfindən idarə olunacaq. Bu komitə ixtisaslı fələstinlilərdən və beynəlxalq ekspertlərdən ibarət olacaq. Nəzarət isə yeni beynəlxalq keçid orqanı olan Sülh Şurası tərəfindən həyata keçiriləcək.

### Sülh Şurası 2027-ci ilin sonuna qədər...

CNN bildirir ki, qətnamənin bir hissəsi ötən ay Qəzzada qüvvəyə minən atəşkəsin əsasını təşkil edir. Diplomatik mənbələrə görə, BMT-nin dəstəyi ölkələrin beynəlxalq təhlükəsizlik qüvvələrində iştirak etməsinə imkan verəcək. Qətnamə Sülh Şurasına 2027-ci ilin sonuna qədər fəaliyyət göstərməyə icazə verir. Qətnaməyə əsasən, o, İsrailin əsas tələbi olan HƏMAS və digər qrupların tərksilah edilməsinə, eləcə də Qəzza zolağının yenidən qurulmasına nəzarət edəcək. Orada həmçinin Fələstin dövlətçiliyinin qurulmasından bəhs olunur. Sənəddə deyilir ki, "Fələstin hakimiyyətinin islahat proqramı sədaqətlə həyata keçirildikdən və Qəzzanın yenidən qurulması davam etdikdən sonra, nəhayət, fələstinlilərin öz müqəddəratını təyin etməsi və dövlətçiliyi üçün əlverişli bir yol yarana bilər". Amerika Birləşmiş Ştatları İsrail və fələstinlilər arasında dinc və firavan birgəyaşayış üçün siyasi perspektivlər barədə razılığa gəlmək üçün dialoqa başlayacaq".

Sülh Şurasının və onunla əlaqəli beynəlxalq mülki və təhlükəsizlik strukturlarının mandatı 31 dekabr 2027-ci ildən sonra bitsə də, Təhlükəsizlik Şurası bu müddəti ayrıca bir qətnamə ilə uzada bilər. Sənədə görə, Sülh Şurasına təhlükəsizlik üçün sülhməramlı qüvvələr yaratmaq səlahiyyəti verilir: "Hərbi kontingentlər iştirakçı dövlətlər tərəfindən təmin ediləcək və Misir və İsrail ilə sıx məsləhətləşmələr aparacaq".

Qətnaməyə əsasən, bu qüvvələr yeni və güclü Fələstin polis qüvvəsi ilə birlikdə sərhəd ərazilərinin təhlükəsizliyini təmin etmək, Qəzzada təhlükəsizliyi və sabitliyi təmin etmək fəaliyyəti ilə məşğul olacaq. Eləcə də, Sülh Şurasının sülhməramlı qüvvələrinin Qəzza zolağını silahsızlaşdırmaq (hərbi, terrorçu və inzibati infrastrukturun məhv edilməsi, onun yenidən qurulmasının qarşısının alınması və silahların daimi olaraq sıradan çıxarılması daxil olmaqla), mülki şəxslərin qorunması və humanitar əməliyyatların dəstəklənməsi, Fələstin polis qüvvələrinə yardım göstərilməsi və humanitar dəhlizlərin müvafiq dövlətlərlə əlaqələndirilməsi kimi fəaliyyətinə də icazə verilir.



### Tramp dünyanı təbrik etdi...

Sülh planının müəllifi olan ABŞ Prezidenti Donald Tramp TruthSocial şəbəkəsində BMT Təhlükəsizlik Şurasının "Sülh Şurasını" tanıması və təsdiqləməsi ilə bağlı səsvermə münasibətilə bütün dünyanı təbrik edib. Tramp "Sülh Şurası"na sədrlik edəcəyini deyib. Ağ Ev rəhbəri əmin edib ki, bu şuraya dünyanın ən nüfuzlu və hörmətli liderləri də daxil olacaq. "Bu qərar, tarixə Birləşmiş Millətlər Təşkilatının tarixinə ən vacib qərarlardan biri kimi düşəcək, dünya sülhünü möhkəmləndirəcək və onu həqiqətən tarixi bir hadisəyə çevirəcək! Birləşmiş Millətlər Təşkilatına və BMT Təhlükəsizlik Şurasının bütün üzvlərinə: Çin, Rusiya, Fransa, Böyük Britaniya, Əlcəzair, Danimarka, Yunanıstan, Qayana, Cənubi Koreya, Pakistan, Panama, Syerra-Leone, Sloveniya və Somaliyə təşəkkür edirəm", - deyə Amerika lideri sosial mediada yazıb.

O, həmçinin ABŞ-ın səylərini dəstəkləyən ölkələrə - Qətər, Misir, Birləşmiş Ərəb Əmirlikləri, Səudiyyə Ərəbistanı, İndoneziya, Türkiyə və İordaniyaya təşəkkür edib. Prezident əlavə edib ki, Sülh Şurasının tərkibi və bir çox digər vacib elanlar yaxın həftələrdə açıqlanacaq.

**SADİQ**

# Avropa İttifaqı xəsis büdcə paketi qəbul edib

## Birlik üzvləri büdcəni 192,8 milyard avro məbləğində təsdiqləyib

Avropa İttifaqı (Aİ) Şurası və Avropa Parlamenti Aİ-nin 2026-cı il üçün büdcəsi barədə razılığa gəlib. Layihədə 2026-cı il üçün ümumi öhdəliklərin həcmi 192,8 milyard avro, ödənişlərin həcmi isə 190,1 milyard avro məbləğində müəyyən edilib. Bununla yanaşı, 2021-2027-ci illər üzrə çoxillik maliyyə çərçivəsinin xərclər tavanı daxilində 2025-ci il üçün 715,7 milyon avro ehtiyat olaraq saxlanılıb.

Qeyd edək ki, AB-nin 2026-cı il üçün ümumi büdcəsi əvvəlki büdcə paketinə nisbətən 2 milyard avro azdır. Belə ki, 2025-ci ilin büdcənin ümumi məbləği 199,44 milyard avro, ümumi ödənişlər isə 155,21 milyard avro təşkil edir. Yəni, gələn il büdcə xərcləri azaldılır. Ancaq əsas xərclər əvvəlki ildəki kimi qalır, bəzi maddələrdə artımlar olunur.

192 milyard avroluq xərc büdcəsi Aİ-nin 2021-2027-ci illər üçün nəzərdə tutulan çoxillik maliyyə çərçivəsində qəbul edilən altıncı büdcə sənədidir.

Avropa Birliyinin Çoxillik Maliyyə Çərçivəsi (ÇMÇ) üzrə ortamüddətli baxışına əsaslanan büdcə layihəsi, eyni zamanda, COVID-19 pandemiyasından sonra bərpa tədbirlərini dəstəkləyən "NextGenerationEU" proqramı çərçivəsində həyata keçirilən fəaliyyətlərlə tamamlanır.

### Müdafiə qabiliyyətinin artırılması

Növbəti büdcə planlaşdırması Aİ prioritetlərinin icrasına, mövcud çağırışlarla mübarizəyə, rəqabət qabiliyyətinin artırılmasına, investisiyaların artımı üzrə strateji məqsədləri dəstəkləməyə, yaşıl və rəqəmsal prioritetlərin inkişaf etdirilməsinə, Avropanın müdafiə hazırlığının gücləndirilməsinə, humanitar yardımın dəstəklənməsinə və miqrasiya təzyiqlərinin qarşılanmasına yönəldiləcək. Büdcədə, həmçinin gözlənilməz ehtiyaclardan və böhranlardan irəli gələn vəziyyətlərə çevik və effektiv reaksiya vermək üçün imkanlar da nəzərə alınıb.

Növbəti ilin maliyyə sənədinin optimist ssenarilərə əsaslandığını bildirən Aİ Şurasında Danimarka Sədrliyinin maliyyə naziri və 2026-cı il büdcəsi üzrə baş məruzəçisi Nikolaj Vammenin fikrincə, yeni büdcə paketi birliyin həm böhranlara çevik şəkildə reaksiya vermək, həm də strateji istiqamətlərdə irəliləmək gücünə sahib olduğunu təsdiqləyir. Büdcə Avropaya təhlükəsizlik, rəqabət qabiliyyəti və sərhəd nəzarəti kimi əsas prioritetlərə diqqət ayırmağa imkan verəcək. Bununla yanaşı, sənəd gözlənilməz böhranlar və təcili ehtiyaclar yarandıqda sürətli və təsirli maliyyə müdaxiləsinin mümkün olmasını təmin edəcək.

### Aİ öz birliyinin güclənməsinə 73 milyard avro xərcləyəcək

Təsnifat baxımdan Aİ-nin büdcəsində 22-23,4 milyard avro vahid bazar, innovasiya və rəqəmsal inkişaf, 71,7-73,2 milyard avro birlik, dayanıqlıq və dəyərlər, 56 milyard avro təbii sərvətlər və ətraf mühit, 3,8-5 milyard avro miqrasiya və sərhəd idarəçiliyi üçün nəzərdə tutulub. Birliyin təhlükəsizlik və müdafiə qabiliyyətinin saxlanılması xərcləri üçün 2,8 milyard avro planlaşdırılıb. Avropa daxilində dövlət idarəçiliyinin optimallaşdırılmasına isə 13,2 milyard avro, region ölkələri ilə qonşuluq siyasətinə, dünya təsisatları ilə inteqrasiyanın davamlılığına isə 15,6 milyard avro xərc proqnozlaşdırılır. Büdcə zərfində Aİ daxilində birliyin möhkəmləndirilməsini nəzərdə tutan strateji qərarların qəbulu ilə yanaşı, üzv dövlətlərin iqtisadi təhlükəsizliyinə və strateji inkişafına mühüm töhfə verəcək prioritetlər də əks olunub. Bu xərclər xüsusi alətlər təsnifatı üzrə qruplaşdırılıb və 5,8 milyard avronun ayrılması təsdiqlənib.



### Ukrayna üçün xərclər yenə prioritet olacaq

N. Vammenin fikrincə, Aİ-nin növbəti ilin büdcə baxışlarına, regional təhlükəsizliyin möhkəmləndirilməsi çərçivəsində Ukrayna üçün əlavə ehtiyacların səfər edilməsi və miqrasiya tədbirlərinin idarə olunması, Yaxın Şərqdəki böhrana cavab vermək üçün ictimai-humanitar alətlərin tətbiqi və digər məsələlər maliyyə ehtiyacları təsnifatına daxil edilib. "Ukrayna üçün Ukrayna mexanizmi" xərc maddəsi üzrə sabit və proqnozlaşdırıla bilən maliyyələşdirmə, eləcə də təhlükəsizlik və müdafiə, sığınacaq və miqrasiya üçün gücləndirilmiş dəstək proqramlarına yönələcək vəsaitin həcmi açıqlanmasa da, Aİ-nin strateji xərc portfelində bir neçə milyard avronun nəzərə alındığı istisna deyil. Məsələn, büdcədəki miqrasiya və sərhəd idarəçiliyi üçün nəzərdə tutulmuş 5 milyard avronun, habelə xüsusi xərclərdəki 5,8 milyard avronun Ukraynaya ayrılması mümkün hesab edilə bilər.

### İttifaqın borcu ÜDM-in 84 faizinə çatacaq

Aİ-nin iqtisadçılarının qənaətinə görə, birlik ölkələrinin iqtisadi potensialı büdcə xərclərini təmin etməyə imkan verəcək, ancaq büdcədə kəsirlər və borcun artması da qaçılmazdır. Avropa Komissiyasının komissarı Valdis Dombrovskis bildirib ki, əksər ölkələrdə borcun həcmi büdcədə borc xidmət xərclərini artırmış olacaq. Bunun başlıca səbəbi Aİ regionunda qlobal iqtisadiyyatda qeyri-müəyyənlik təsirləri ilə yanaşı, müdafiə xərclərinin ciddi artımının davam etməsidir.

Proqnozlara görə, 2025-ci ildə Aİ-nin 11 üzv ölkəsində büdcə kəsiri ÜDM-in 3 faizni aşacaq. Həmin ölkələr sırasında Belçika, Almaniya, Fransa, Latviya, Malta, Avstriya, Slovakiya, Finlandiya, Macarıstan, Polşa və Rumıniya yer alır. İtaliyada isə büdcə kəsirinin ÜDM-in 3 faizinə qədər azalacağı fərz edilir. Ümumilikdə, Aİ-nin dövlət büdcəsi kəsirinin 2026-cı və 2027-ci illərdə 3,4 faizə yüksələcəyi gözlənilir. Aİ-nin dövlət borcu isə gələn il ÜDM-in 84, 2027-ci ildə 85 faizə qədər artacağı ehtimal olunur.

**E.CƏFƏRLİ**

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“PressInform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Bakmətbuat” MMC - 0124314313
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**




# Daha 37 ailənin sevinci...




Dünən növbəti köç karvanı ilə Horovlu kəndinə çatan ailələrə evlərinin açarları təqdim olunub.

Cəbrayıl rayonu Horovlu kəndinə köçən ailələr qarşılandıqdan sonra onlara ANAMA əməkdaşları tərəfindən mina və partlamamış hərbi sursatların yaratdığı təhlükələr barədə ətraflı məlumat verilib. Ailələrə tanımadıqları naməlum əşya və cisimlərdən uzaq durmaları, belə hallarla qarşılaşdıqları təqdirdə isə aidiyyəti qurumlara məlumat vermələri tövsiyə olunub.

Açarların təqdim olunması mərasimində Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin əməkdaşları və digər



rəsmi şəxslər iştirak ediblər. Ailələr sevinclə açarları qəbul edərək öz evlərində məskunlaşıblar.

Qeyd edək ki, bu mərhələdə Horovlu kəndinə 37 ailə olmaqla, 160 nəfər köçürülüb. Onlar respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya, pioner düşərgəsi, yarımçıq tikililər və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdir.

# Səssiz qatil...

## Dəm qazından boğulanların sayı artır

Noyabrın 15-dən etibarən Bakı şəhəri və regionlarda istilik mövsümü başlayıb. Məlumdur ki, payız-qış mövsümündə təbii qazın istifadəsinə tələbat xeyli artır. Havaların soyuması dəm qazı “tor”una düşənlərin də çoxalmasına səbəb olur. Təəssüf ki, hər il eyni xəbərdarlıqlar edilməsinə və tövsiyələr verilməsinə baxmayaraq, faciəvi hallar baş verir.

Dəm qazından zəhərlənmə halları təhlükəsizlik tələbləri pozulduğu üçün baş verir. Mütəxəssislər isə deyir ki, dəm qazından zəhərlənmə hallarının artmasında əsas günahkar elə vətəndaşların özüdür. Çünki qaz sobalarının işlədiyi otaq isti olsun deyə, adətən, tam qapalı vəziyyətdə saxlanılır. Nəticədə, sobadan çıxan zərərli maddələr dar və qapalı otaqda toplanır və zəhərlənmə baş verir. Ekspertlər bildirir ki, dəm qazı narkotik təsirə malikdir, toksiki təsirini mərkəzi sinir sisteminə çox az vaxtda göstərir. Xəstə hiss etmədən başgicəllənmə əmələ gəlir. Bu zaman insan az müddətdə huşunu itirib yıxılır. Ürək çatışmazlığı, qan təzyiqinin düşməsi, nəfəs çatışmazlığı getdikcə kəskinləşir, insan çox ağır vəziyyətə düşür.

## Çıxış yolu nədir?

Təhlükəsizlik məsələləri üzrə ekspert Elmar Nurəliyev “Yeni Azərbaycan”a açıqlamasında bildirib ki, dəm qazı iysiz, dadsız, rəngsiz, havadan

## Evin bacaları ildə ən azı 2 dəfə təmizlənməlidir

yüngül olan qazdır. Ekspertin sözlərinə görə, insanlar dəm qazının nədən yarandığını bilməlidirlər: “Yanma prosesi düzgün getmədikdə dəm qazı əmələ gəlir. Əgər yanma prosesi düzgün gedərsə, onda dəm qazı əmələ gəlmir”.

E.Nurəliyev yanma prosesinin nə zaman düzgün getmədiyi haqda danışarkən bildirib ki, qaz cihazlarına kənar müdaxilələr olarsa, qaz cihazlarının avadanlıqları standartlara cavab verməzsə, evə metal borular əvəzinə kapron və digər materiallardan olan borularla qaz çəkilərsə, qaz xəttində hər hansı bir nasazlıq, dəlik və sızma olarsa, onda dəm qazı əmələ gəlir: “Həmçinin qaz sobalarına kənar müdaxilələrin edilməsi də çox təhlükəlidir. İnsanlar bir otaqdan digər otağa kustar üsulla hazırlanmış qaz xətti çəkirlər və ya qızdırıcı sobalara kənar müdaxilələr edirlər. Bu da yanma prosesinin düzgün getməməsinə gətirib çıxarır. Bundan başqa, evin bacaları ildə ən azı iki dəfə təmizlənməlidir. Əgər evin bacaları təmizlənməzsə, təbii ki, orada hava ventilyasiyası, sovrulması olmur və yanma prosesini də çətinləşdirir. Daha dəqiq desək, kömürün və odunun yanmasından belə dəm qazı əmələ gəlir. Evin havası gün ərzində iki dəfə-səhər və axşam dəyişməlidir. Evdə qazı yandırarkən əmin olmaq lazımdır ki, otaqda qaz iyi var və ya yox. Əgər evdə qaz iyi yoxdursa, onda kibriti çəkmək lazımdır. Hətta çöldən evə daxil olan zaman da otaqda qaz qoxusunun olub-olmadığını yoxlamaq, daha sonra işıqları yandırmaq vacibdir”.



## Dəm qazı 7 dəqiqəyə ölümə səbəb olur

Ekspert qeyd edib ki, dəm qazları, əsasən, hamam otağında və mətbəxdə əmələ gəlir: “Demək olar ki, dəm qazının 95 faizi hamam otaqlarında əmələ gəlir. Qışda insanların qaza olan tələbatları daha çoxdur. Həmin vaxtda insanlar otaqlarda qapı-pəncərələri bağlı saxlayırlar. Yayda isə qapı-pəncərələr çox vaxt açıq olur və hava ventilyasiya olduğuna görə dəm qazı da, demək olar ki, olmur. Bir otaqdakı hava kütləsinin 0,1 faizi dəm qazı olarsa, bu, insan ölümünə gətirib çıxarır. Dəm qazı olan otaqda insanın həyatını itirməsi üçün 7 dəqiqə kifayət edir. Hamam otaqlarında olan zaman nəfəsliklər mütləq açıq olmalıdır. İnsanlar yayda həmin nəfəslikləri açıq, qışda isə bağlı saxlayırlar. Hamam otaqlarında ventilyasiya olmalıdır, qapıların aşağı hissəsində isə mütləq dəliklər olmalıdır. Hamam otaqlarına kustar üsulla hazırlanan qızdırıcılar qoyulmamalıdır. Bu, dəm qazının yaranmasına səbəb olur. Əgər insanlar bu standartlara əməl etsələr, dəm qazı riski azalar”.

*Yeganə BAYRAMOVA*

# Kişilər də şiddət yaşayır...



## Dünyanın 60-dan çox ölkəsində qeyd olunan gün

Adətən qadınlara qarşı fiziki və psixoloji zorakılıq halları gündəmə gətirilir. Belə hallar istər Azərbaycanda, istərsə də digər ölkələrdə tez-tez qarşılaşdığımız hadisələrdəndir. Etiraf edək ki, “zorakılıq” sözü işlənərkən, ağla ilk gələn məhz qadınlar olur. Ancaq bu bir faktdır ki, dünyada artıq kişilərə qarşı da aqressiya artan tendensiya ilə davam etməkdədir.

## Maraqlı statistika...

BMT-nin son illər apardığı araşdırmalara görə, ailədaxili və məişət zorakılığı zamanı qurban rolunda kişilərin sayı çoxalmağa doğru gedir. ABŞ Ədliyyə Departamentinin məlumatına əsasən, qadınların həyat yoldaşları ilə mübahisə zamanı 2,5 dəfə daha çox bıçağa əl atdığı, 2 dəfə çox isə öz partnyorlarına ağır xəsarətlər yetirdiyi bildirilir.

Rusiyada və ABŞ-da həyat yoldaşını öldürən hər 100 kişiyə ərini öldürən 75 qadın düşür. Ekspertlər yaxın onilliklərdə bu nisbətin bərabər olacağını iddia edir. Böyük Britaniyada 2018-ci ildə keçirilən sorğu zamanı rəyi soruşulan 38 faiz qadın və 24 faiz kişi tərəf müqabilinə fiziki şiddət göstərdiyini etiraf edib.

Statistikaya görə, 40 milyon əhalisi olan Keniyada 2,1 milyon kişi qadınlar tərəfindən fiziki və psixoloji şiddətə məruz qalır. Keniyalı sosioloqlar işsiz və yaşı 40-ı keçmiş kişilərin daha çox istismar edildiyini bildirirlər. Ölkədə qadınlar ərlərini aldadır, onları ev işlərini görməyə və uşağa baxmağa məcbur edirlər.

## Azərbaycanda vəziyyət necədir?

Digər ölkələrlə müqayisədə Azərbaycanda kişilərə qarşı zorakılıq halları azdır. Ancaq ölkəmizdə kişilər daha çox psixoloji zorakılığa məruz qalırlar. Belə ki, bəzən ahıl kişilər öz gəlini, həyat yoldaşı, hətta nəvəsi tərəfindən fiziki zorakılığa uğrayır. Həmin yaşlarda onlar fiziki cəhətdən özlərini qoruya bilmir, yaxud sağlamlıq imkanları məhdud olur. Bu səbəbdən zorakılıqla qarşılaşa bilirlər.

Respublikamızda hər il məişət zorakılığı ilə bağlı təxminən 850-yə qədər cinayət işi qeydə alınır. Belə ki, son bir neçə il ərzində zorakılıq hallarının 86 faizi qadınlara qarşı törədilib. 14 faiz zorakılıq halı isə kişilərə qarşı olub.

Məişət zorakılığının başvermə səbəbləri əsasən ailədaxili söz-söhbətlərdir. Kişilərə qarşı baş verən məişət zorakılığında daha çox kişinin ailə vəzifələrini yerinə yetirməməsi, evə qazanc gətirməməsi, qayınana və qayınatanın ailədaxili işlərə müdaxilə etməsi, eləcə də sözügedən tərəflərin yola getməməsi və s. səbəb göstərilir.

Yeri gəlmişkən, noyabrın 19-u bütün dünyada Beynəlxalq Kişilər Günüdür. Bu bayramı ilk dəfə 1999-cu ildə Karib dənizinin cənub hissəsində olan ada dövlətləri Trinidad və Tobaqo sakinləri keçiriblər. Dünyanın 60-dan çox ölkəsində qeyd olunan Beynəlxalq Kişilər Gününün keçirilməsində məqsəd onların ailədə və uşaqların tərbiyəsində rolunu artırmaq və onlara qarşı olan diskriminasiyanın qarşısını almaq, kişilərin sağlamlıq məsələlərinə köklənmək, genderlərarası münasibəti təkmilləşdirmək, gender bərabərliyinə yardım etmək və müsbət kişi rolu modelini vurğulamaqdır. Bu, kişilərə qarşı olan ayrı-seçkiliyi nəzərə çatdırmaq və onların cəmiyyət, ailə, evlilik və uşaqların tərbiyəsindəki töhfələrini və naliyyətlərini qeyd etmək üçün bir təşəbbüsdür. Əsas məqsəd isə insani dəyərləri önə çəkməkdir.

*Yeganə BAYRAMOVA*

## Kişi sığınacaqları olan ölkələr

Artıq bir çox ölkələrdə kişilərin hüquqlarını müdafiə komitələri və kişi sığınacaqları var. Məsələn, Türkiyədə, İsveçrədə, ABŞ-da, Almaniyada, Kanadada, Niderlandda zorakılığa məruz qalan kişilər üçün xüsusi sığınacaqlar fəaliyyət göstərir. Bu sığınacaqlara hansısa fəlakətdən çətin vəziyyətə düşən, cinsi oriyentasiyasına görə təzyiqə məruz qalan kişilər də sığına bilir.

Türkiyədə kişilər üçün sığınma evlərinin ən məşhuru Konyada yerləşir. Bura müraciət edənlərin böyük əksəriyyəti həyat yoldaşı və uşaqları tərəfindən zorakılığa məruz qalmış kişilərdir. İldə ən azı 400-500 nəfər yardım məqsədilə buraya müraciət edir, bəziləri isə sığınacağın uzunmüddətli qonağına çevrilir.

# Qlobal istiləşmə və su qıtlığı taxıl məhsuldarlığına mənfi təsir göstərəcək

Alimlər xəbərdarlıq edirlər ki, buğda gələcək isti hava dalğaları zamanı kəskin şəkildə daha çox suya ehtiyac duya bilər. Tədqiqatlar göstərir ki, buğda bitkiləri istilik dalğası şəraitinə məruz qaldıqda, daha yüksək atmosfer CO2 konsentrasiyalarında böyümə ilə əlaqəli suya qənaət faydasını itirir.

AZƏRTAC xarici mediaya istinadla xəbər verir ki, Britaniyada aparılan yeni araşdırmaya görə, gələcək istilik dalğaları buğdanın suya olan ehtiyacını mövcud təxminlərdən daha çox artıra bilər. Şeffild Universitetinin tədqiqatçıları buğda yarpaqlarındakı stomatal məsamələrin istilik dalğaları zamanı bitkinin sərin qalmasına kömək etmək üçün geniş şəkildə açıldığını aşkar ediblər. Bu, buğda bitkilərinin gələcəkdə həddindən artıq istilik dalğaları zamanı gözləniləndən xeyli çox su istifadə edə biləcəyi deməkdir.



Bioloqlar Robert Keyn və Holli Kroftun rəhbərlik etdiyi tədqiqat buğda bitkilərinin istilik dalğası şəraitinə məruz qaldıqda adətən yüksək atmosfer karbon qazı konsentrasiyalarında böyümə ilə əlaqəli əsas su qənaət faydalarının çoxunu itirdiyini ortaya qoyub.

Buğda dünya miqyasında bəşəriyyətə gündəlik kalorinin təxminən 20 faizini təmin edir və torpaq sahəsinə görə ən çox becərilən məhsuldur. Lakin tədqiqata görə, son əsrdə məhsuldarlıq əsasən azot gübrələri sayəsində kəskin şəkildə artsa da, bu, məhsulun suya olan ehtiyacını artırıb və onu quraqlığa daha həssas edib. Belə ki, istilik dalğaları zamanı buğda ağızcıqları CO2 böyümə konsentrasiyasından asılı olmayaraq, dəyişən işıq səviyyələrinə effektiv şəkildə reaksiya verə bilmir.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4983
Sifariş: 2330
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova